## Laçın yolunda sülhməramlıların 36 avtomobili maneəsiz keçib



**Şuşadan keçən Xankəndi-Laçın yolunda Rusiya sülhməramlılarına məxsus daha 11 təminat və təchizat avtomobilinin hərəkət etməsinə növbəti dəfə şərait yaradılıb.**

Toplanış yerində nəqliyyat vasitələrinin maneəsiz şəkildə hərəkət etməsi təmin olunub.

Belə ki, 1 minik, 10 yük maşını Laçından Xankəndi istiqamətinə keçid edib.

Bu, bir daha onu sübut edir ki, yol aksiyanın keçirilməsinə baxmayaraq, humanitar məqsədlər üçün açıqdır.

Bununla dünən Xankəndi-Laçın yolunda Rusiya sülhməramlılarına məxsus ümumilikdə 36 avtomobil maneəsiz hərəkət edib.

## Qız Qalasının qarşısındakı körpü təmirə bağlanıb



**Qız Qalasının qarşısında yerləşən körpü təmir işləri üçün bağlanıb.**

Bu barədə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsindən məlumat verilib.

Bildirilib ki, aparılan təmir işləri ilə əlaqədar olaraq körpü üzərində piyadaların hərəkəti məhdudlaşdırılacaq.

Məlumata görə, körpünün aşırımlarının bərpasının fevralın 10-na qədər yekunlaşdırılması nəzərdə tutulub. İdarə müvəqqəti narahatlığa görə İçərişəhərin sakinlərindən və qonaqlardan üzr istəyib.


❒ № 9 (5770), 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 18 yanvar 2023-cü il (çərşənbə)




## Daha 100-dən çox müraciətə baxılıb

### Əfv Komissiyasının növbəti iclası keçirilib

**Bu gün Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının iclası keçirilib.**

İclasda əfvlə bağlı 100-dən çox müraciətə baxılıb.

Qeyd edək ki, komissiyanın son iclası yanvarın 13-də keçirilib. İclasda 100-dən artıq müraciətə baxılıb.

Ümumilikdə, 2 iclası ərzində əfvlə bağlı 200-dən artıq müraciətə baxılıb və müvafiq qərarlar verilib.

Komissiyanın növbəti iclasının yanvarın 24-də keçiriləcəyi nəzərdə tutulur.



## Prezident İlham Əliyev: Azərbaycan önəmli tranzit ölkəyə çevrilib

**Azərbaycanda yeni tankerlərin, quru yük gəmilərinin və bərələrin sayının artırılmasına ehtiyac var.**

Bu barədə Prezident İlham Əliyev yanvarın 17-də Davosda Niderlandın "Damen Shipyards Group" şirkətinin icraçı direktoru və səhmdarı Arnout Damen ilə görüşdə bildirib.

Bu sahədə də "Damen Shipyards Group" şirkəti ilə əməkdaşlıq üçün yaxşı potensialın mövcud olduğunu qeyd edən dövlətimizin başçısı Azərbaycanın önəmli tranzit ölkəyə çevrildiyini vurğulayaraq, respublikamızın ərazisindən keçən yüklərin həcminin 75 faiz artdığını bildirib.

## Bəzi təhsil işçilərinin maaşları artırılıb

### Baş nazir Əli Əsədov qərar imzalayıb



**Büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlarda tədris məşğələlərinin aparılmasına cəlb edilən işçilərin əməyinin saathesabı ödənilməsi məbləğləri təsdiqlənib.**

Bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Müsabiqə və baxışların münsiflər heyəti üzvlərinin və müsabiqəyə təqdim edilən işlərin resenzentlərinin əməyinin saathesabı ödənilməsi məbləğləri professor və ya elmlər doktoru üçün 16,90 manat, dosent və ya fəlsəfə doktoru üçün 12,30 manat, elmi dərəcəsi, elmi adı olmayan şəxslər üçün 8,30 manat məbləğində müəyyənləşdirilir.

Tədris məşğələlərinin aparılmasında iştirak edən plastik poza nümayişçilərinin (naturaçıların) əməyinin saathesabı ödənilməsi bir akademik saata görə geyimli naturada 10,80 manat, geyimsiz naturada isə 17,85 manat məbləğində müəyyən olunur. Əməyin saathesabı ödənilməsi məbləğləri mülki hüquqi müqavilə əsasında işləyən şəxslərə şamil edilir.

# XİN başçıları telefonla danışdı

### Ceyhun Bayramov: "Laçın yolundan sui-istifadəyə qarşı etirazlar Azərbaycan vətəndaşlarının legitim hüququdur"





**Yanvarın 17-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən "Şərq"ə bildiriblər ki, telefon danışığı zamanı Azərbaycan və Rusiya arasında mövcud ikitərəfli əməkdaşlıq gündəliyində duran aktual məsələlər, o cümlədən Laçın yolu ətrafında cari vəziyyət müzakirə mövzusu olub.

Nazir Ceyhun Bayramov Rusiya sülhməramlı kontingentinin yerləşdiyi Azərbaycan ərazilərində qeyri-qanuni iqtisadi fəaliyyət, o cümlədən təbii sərvətlərin istismarına və Laçın yolundan sui-istifadəyə qarşı etirazların Azərbaycan vətəndaşlarının legitim hüququ olduğunu vurğulayıb. bu xüsusda, etirazçıların haqlı tələblərinin yerinə yetirilməsinin zəruri olduğunu diqqətə çatdırıb.

(səh.2)

## ABŞ Azərbaycan və Ermənistanı dialoqa qayıtmağa çağırıb

### Maykl Karpenter bildirib ki, ərazilərin qarşılıqlı tanınması uzunmüddətli sülhə aparan yeganə doğru yoldur




**"ABŞ Azərbaycan və Ermənistanı mübahisələrini həll etmək üçün yenidən mənalı müzakirələrə qayıtmağa çağırır".**

Bunu ABŞ-ın ATƏT-dəki səfiri Maykl Karpenter dünən keçirilən ATƏT Daimi Şurasının xüsusi iclasında çıxışı zamanı deyib.

O bildirib ki, hərtərəfli sülh sazişi münasibətlərin normallaşması və ərazilərin qarşılıqlı tanınması əsasında uzunmüddətli sülhə aparan yeganə doğru yoldur...

(səh.2)



## Daş hasarlar sökülür

### Naxçıvanda evlərin magistral yola çıxışları təmin edilir

**"Naxçıvan Muxtar Respublikasında həyata keçirilən dəyişikliklərin ilk müsbət nəticəsini artıq doğulduğum Şahbuz rayonunun Kolanı kəndinin sakinləri öz həyatlarında hiss etməyə, görməyə başlayıblar".**

Bu barədə Ədalət Partiyasının sədr müavini Elxan Şükürlü deyib. Partiya təmsilçisi qeyd edib ki, kəndi iki yerə bölən və əhalinin gediş-gəlişinə ciddi çətinliklər yaradan, el arasında "Çin səddi" adını almış hasarlarda söküntü işləri aparılıb: "Evlərin magistral yola çıxışları təmin edilib.

(səh.2)

## Aktyor Vahid Əliyev xəstəxanadan evə buraxılıb



**Bu yaxınlarda açıq ürək əməliyyatı keçirən Əməkdar artist Vahid Əliyev bu gün evə buraxılıb.**

Bu barədə APA-ya sənətçinin oğlu Ramil Əliyev məlumat verib. Onun sözlərinə görə, aktyorun səhhəti yaxşılaşır: "Müalicəsi evdə davam edəcək. Bildiyiniz kimi, ağır əməliyyat keçirib. Amma artıq səhhətində yavaş-yavaş irəliləyiş hiss olunur", - o deyib.

*Qeyd edək ki, Vahid Əliyev ötən il dekabrın 24-də infarkt diaqnozu ilə xəstəxanaya yerləşdirilib və bir neçə gün öncə açıq ürək əməliyyatı keçirib.*

## 4 nəfər vəfat edib

### Azərbaycanda koronavirusa 71 yeni yoluxma qeydə alınıb




**Azərbaycanda son sutkada koronavirus (COVID-19) infeksiyasına 71 yeni yoluxma faktı qeydə alınıb, 70 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 4 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 827 450 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 816 942 nəfər müalicə olunaraq sağalıb, hazırda 454 aktiv xəstə var. Bu günə qədər 10 054 nəfər vəfat edib. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 2 863, bu günə qədər isə ümumilikdə 7 461 419 test icra olunub.



## ATƏT-dəki daimi nümayəndəmiz Mirzoyana cavab verib

### Azərbaycan erməni əsilli vətəndaşlarını yenidən inteqrasiya etməkdə qərarlıdır

(səh.2)



## Narahatlığa əsas yoxdur

### Vətəndaşların yaşayış yerini dəyişərkən olduqları yerdə qeydiyyata düşməsi çox vacibdir

(səh.6)



# ATƏT-dəki daimi nümayəndəmiz Mirzoyana cavab verib

## Azərbaycan erməni əsilli vətəndaşlarını yenidən inteqrasiya etməkdə qərarlıdır

**“Azərbaycan milli və etnik mənşəyindən asılı olmayaraq erməni əsilli vətəndaşlarını siyasi, sosial və iqtisadi məkana yenidən inteqrasiya etməkdə qətiyyətlidir”.**

Bunu ATƏT-in Daimi şurasının xüsusi iclasında Azərbaycanın təşkilatdakı daimi nümayəndəsi Rövşən Sadıqbəyli Ermənistan XİN başçısı Ararat Mirzoyanın çıxışına cavabında deyib. Onun sözlərinə görə, bu məqsədlə Azərbaycan yerli erməni sakinlərlə qarşılıqlı əlaqələrin qurulması istiqamətində ardıcıl və uğurlu səylər göstərib, beləliklə, regionda su, nəqliyyat və enerji təchizatı ilə bağlı mühüm məsələləri həll edib: ”Bu əlaqələri təşviq etmək və davam etdirmək lazımdır. Bununla belə, Azərbaycan kövrək sülh quruculuğu prosesini pozmaq üçün Azərbaycanın Qarabağ bölgəsinə yerləşdirilən Ruben Vardanyan kimi şübhəli şəxslərlə əlaqə saxlamayacaq”.

Daimi nümayəndə bildirib ki, müharibənin və işğalın dağıdıcı nəticələrinə və sağalmamış yaralarına baxmayaraq, Azərbaycan münaqişə başa çatdıqdan sonra Ermənistanla dövlətlərarası münasibətlərin 5 baza prinsipi əsasında normallaşması prosesinin başlanması təşəbbüsünü irəli sürüb: ”Son 2 il ərzində mənim ölkəm sülh gündəmini təşviq etmək üçün güclü siyasi iradə nümayiş etdirir. Ötən il Brüssel, Praqa və Soçidə yüksək səviyyədə keçirilən görüşlərdə hər iki tərəf bir-birinin suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını qarşılıqlı şəkildə tanıdıqlarını təsdiqləyib. Bu, sülh müqaviləsinin bağlanmasına gətirib çıxara və yaxşı əsas yarada bilər”.

Rövşən Sadıqbəyli deyib ki, Minsk Qrupu köhnəlmiş struktur kimi son 2 ildə tamamilə qeyri-işlək vəziyyətdədir. Bu struktura istinadlar yalnız yalan gözləntilər və illüziyalarla qidalanır: ”Ermənistan hələ də hökm sürən revanşist yanaşmanı qoruyur və gərginliyi artırır. Azərbaycan və Ermənistan arasında münaqişədən sonra normallaşma ilə bağlı ikitərəfli müzakirələr ATƏT çərçivəsindən kənarda aparılır”.

O qeyd edib ki, Ermənistan bu reallığı etiraf etməli və buna uyğun hərəkət etməlidir: ”Əgər bu ölkə həqiqətən də regionda sülh və sabitlikdə maraqlıdırsa, o zaman biz Ermənistanı Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü hədəfləyən bütün fəaliyyətlərdən və qızışdırıcı ritorikadan əl çəkməyə, normallaşma prosesinə xələl gətirmək cəhdlərini dayandırmağa və üçtərəfli bəyanatlar üzrə öz öhdəliklərini tam şəkildə yerinə yetirməyə çağırırıq. Ermənistan Azərbaycanın konstruktiv təklifinə cavab verməli və Azərbaycan və digər qonşu dövlətlərlə onların suverenliyinə və ərazi bütövlüyünə hörmət əsasında münasibətlərini normallaşdırmaq üçün yaranmış tarixi fürsətdən istifadə etməli və bu istiqamətdə zəruri addımların atılmasını təmin etməlidir. Bunun regionda uzunmüddətli sülh və sabitlik üçün alternativi yoxdur. Azərbaycan dinc, təhlükəsiz, sabit və firavan regionun yaradılması məqsədlərinə tam sadiqdir və bu məqsədlə səylərini davam etdirəcək”.

**İsmayıl**

# ABŞ Azərbaycan və Ermənistanı dialoqa qayıtmağa çağırıb

## Maykl Karpenter bildirib ki, ərazilərin qarşılıqlı tanınması uzunmüddətli sülhə aparan yeganə doğru yoldur

**”ABŞ Azərbaycan və Ermənistanı mübahisələrini həll etmək üçün yenidən mənalı müzakirələrə qayıtmağa çağırır”.**

**APA xəbər verir ki, bunu ABŞ-ın ATƏT-dəki səfiri Maykl Karpenter dünən keçirilən ATƏT Daimi Şurasının xüsusi iclasında çıxışı zamanı deyib.**



O bildirib ki, hərtərəfli sülh sazişi münasibətlərin normallaşması və ərazilərin qarşılıqlı tanınması əsasında uzunmüddətli sülhə aparan yeganə doğru yoldur:

”Biz həmçinin Azərbaycanla Ermənistanı iddia edilən vəhşilikləri araşdırmağa və günahkarları məsuliyyətə cəlb etməyə çağırırıq. ABŞ bu regionda bütün xalqların təhlükəsizliyini yaxşılaşdırmaq üçün Şimali Makedoniya və ATƏT-lə işləməyi səbirsizliklə gözləyir”.

Səfir qeyd edib ki, ABŞ Azərbaycan və Ermənistanla bu məsələnin hərtərəfli və davamlı həllinə nail olmaq üçün Avropa İttifaqı kimi tərəfdaşlar və ATƏT kimi beynəlxalq təşkilatlar vasitəsilə ikitərəfli, çoxtərəfli şəkildə işləməyə davam edəcək.

ABŞ diplomatı çıxışında Laçın-Xankəndi yolu ətrafındakı son vəziyyətə də toxunub və yaranmış vəziyyətdən narahatlığını ifadə edib.

# İndi də qripə qarşı peyvəndləmə...

## TƏBİB əhaliyə müraciət edib

**Qış aylarında respirator viruslara yoluxma hallarının artması ənənəvi olaraq müşahidə olunur.**

**TƏBİB-dən verilən xəbərə görə, 2022-2023-cü il qış mövsümü üçün Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən Avropa regionunda 21 noyabrdan etibarən influenza epidemiyası elan olunub.**



İnfluenza el arasında qrip olaraq tanınan xəstəlikdir. Xəstəlik özünü qızdırma, burun axması, baş və boğaz ağrıları, yorğunluq, quru öskürək kimi simptomlarla biruzə verir və adətən simptomatik müalicə olunur.

Xəstələrə izolyasiya qaydalarına əməl etmələri, vəziyyətləri kəskinləşdikdə həkimə müraciət etmələri tövsiyə olunur.

Həssas qrupa daxil olan şəxslər isə (hamilə qadınlar, uşaqlar, xroniki xəstəliyi olanlar, yaşlılar) dərhal həkimə müraciət etməli və nəzarətdə olmalıdırlar.

İnfluenza virusuna qarşı effektivliyi sübuta yetirilmiş vaksinlər mövcuddur və ildə bir dəfə peyvənd olmaqla yüksək risk qrupuna daxil olan şəxslərdə ağırlaşma və ölüm hallarının qarşısını almaq mümkündür.

Hazırda TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələrində influenza virusuna (qrip) qarşı vaksinasiya aparılır. Ötən ilin dekabr ayının 15-dən etibarən 13 008 nəfər qrip xəstəliyinə qarşı vaksin olunub. Bakı şəhəri üzrə bu rəqəm 2 843 nəfər təşkil edib.

*Qeyd edək ki, arzu edən şəxslər vaksin üçün qeydiyyatda olduqları tibb müəssisəsinə müraciət edə bilər.*



# Rusiya bir sıra beynəlxalq konvensiyalardan çıxır

**Rusiya bir sıra beynəlxalq konvensiyalardan çıxır.**

”Report” TASS-a istinadən xəbər verir ki, ölkə başçısı Vladimir Putin Avropa Şurasının Rusiyaya münasibətdə beynəlxalq müqavilələrinə xitam verilməsi haqqında qanun layihəsini Dövlət Dumasına təqdim edib.

Buraya insan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında, terrorçuluğa qarşı mübarizə üzrə konvensiyalardır.

Rusiyada Avropa Şurasının müqavilələrinə xitam verilməsi haqqında qanun layihəsinə digər məsələlərlə yanaşı, Avropa Şurasının Nizamnaməsi də daxildir.

# Hər kəs üçün xeyirli olacaq

## Nazirlər “3+3” və Azərbaycan-Türkiyə-İran formatlarını müzakirə edib



**Cənubi Qafqazın stabilliyi hər birimiz üçün önəmlidir.**

APA-nın İstanbul müxbiri xəbər verir ki, bu barədə Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu iranlı həmkarı Hüseyn Əmir Abdullahiyan ilə Ankarada keçirilən birgə mətbuat konfransı zamanı bildirib.

O qeyd edib ki, iranlı həmkarı ilə ”3+3” və Azərbaycan-Türkiyə-İran formatları çərçivəsində görüşlərin keçirilməsini müzakirə edib.

Nazir, Cənubi Qafqazda həyata keçiriləcək infrastruktur layihələrin hər kəs üçün xeyirli olacağını da əlavə edib.

# XİN başçıları telefonla danışdı

## Ceyhun Bayramov: “Laçın yolundan sui-istifadəyə qarşı etirazlar Azərbaycan vətəndaşlarının legitim hüququdur”



**Yanvarın 17-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən ”Şərq”ə bildiriblər ki, telefon danışığı zamanı Azərbaycan və Rusiya arasında mövcud ikitərəfli əməkdaşlıq gündəliyində duran aktual məsələlər, o cümlədən Laçın yolu ətrafında cari vəziyyət müzakirə mövzusu olub.

Nazir Ceyhun Bayramov Rusiya sülhməramlı kontingentinin yerləşdiyi Azərbaycan ərazilərində qeyri-qanuni iqtisadi fəaliyyət, o cümlədən təbii sərvətlərin istismarına və Laçın yolundan sui-istifadəyə qarşı etirazların Azərbaycan vətəndaşlarının legitim hüququ olduğunu vurğulayıb. bu xüsusda, etirazçıların haqlı tələblərinin yerinə yetirilməsinin zəruri olduğunu diqqətə çatdırıb.

Nazir Ceyhun Bayramov, guya Azərbaycan tərəfindən Laçın yolunun bağlanması, Azərbaycan ərazilərində yaşayan erməni sakinlərin blokadaya alınması, humanitar böhran vəziyyətinin yaranması barədə iddiaların əsassız olduğunu qeyd edib. Bu xüsusda, Laçın yolundan hər gün onlarla nəqliyyat vasitəsinin, sülhməramlı kontingentin avtomobillərinin, Beynəlxalq Qızıl Xaç Komitəsinin, erməni təcili tibbi yardım maşınlarının keçməsinin Ermənistan tərəfinin əsassız iddialarını təkzib etdiyi vurğulanıb.

Bununla yanaşı, özlərini Azərbaycan ərazilərində yaşayan erməni sakinlərin ”nümayəndələri” kimi təqdim edən şəxslərin əhalini yoldan istifadəyə maneçilik törətdiyi və bununla süni şəkildə ”blokada”, ”humanitar böhran” təəssüratı yaratmasının qəbuledilməz olduğu bildirilib.

Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Volodimir Zelenski Oleksiy Arestoviçin istefasını qəbul edib

**Ukraynanın dövlət başçısı Volodimir Zelenski Prezident Ofisinin müşaviri Oleksiy Arestoviçin istefasını qəbul edib.**



”Report” Ukrayna KİV-inə istinadən xəbər verir ki, bu barədə V.Zelenskinin mətbuat xidmətindən bildirilib.

Yanvarın 15-də axşam O.Arestoviç ”Feigin Live” yutub kanalının efirində Dneprdə yaşayış binasının bir hissəsini dağıdan raketin Ukrayna hava hücumundan müdafiə qüvvələri tərəfindən vurulduğunu və nəticədə çoxmərtəbəli binanın üzərinə düşərək partladığını bildirmişdi.

Rusiya onun bu səhv açıqlamasından Ukraynaya qarşı istifadə edib. Rusiya Prezidenti Vladimir Putinin mətbuat katibi Dmitri Peskov da Dneprdəki vəziyyəti şərh edərkən O.Aretoviçin sözlərindən sitat gətirib.

Ukrayna Silahlı Qüvvələrinin Hərbi Hava Qüvvələrinin komandanlığı O.Arestoviçin sözlərini tez bir zamanda təkzib edərək bildirib ki, Rusiyanın atdığı ”X-22” raketlərini vurmaq üçün Ukrayna hərbçilərinin vasitələri yoxdur.

# Britaniya Türkiyənin gücündən yararlanır

## Regionlarda ulduzu parlayan hər yeni güc Britaniyanın nəzər-nöqtəsində tərəfdaşdır

**Türkiyənin milli müdafiə naziri Hulusi Akar britaniyalı həmkarı Ben Uollesin dəvəti ilə Londonda səfərdə olub. Tərəflərin görüşü zamanı ikitərəfli, regional müdafiə və təhlükəsizlik, müdafiə sənayesi sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub, fikir mübadiləsi aparılıb.**



Ekspertlərin fikrincə, Uolles-Akar görüşü Rusiya-Ukrayna müharibəsi, Türkiyənin genişlənən xarici siyasət gündəliyi, Ankara-Afina gərginliyi, Yaxın Şərqdəki prioritetlər və Cənubi Qafqazdakı mümkün gizli planların fonunda maraq oyadır.

**Siyasi şərhçi Aqşin Kərimov ”Şərq”ə deyib ki, Britaniya ABŞ və Avropa İttifaqından fərqli olaraq özünü Türkiyənin qarşısına qoymur. Analitikə görə, Britaniya ekspansiya hüdudlarını qorumaq və onun uclarını uzatmaq siyasətində Türkiyənin gücündən yararlanır:** ”Regionlarda ulduzu parlayan hər yeni güc Britaniyanın nəzər-nöqtəsində tərəfdaşdır. Britaniya nüfuz dairələrinin bölüşdürülməsində dominant mövqelərini möhkəmlətmək üçün Türkiyə kimi oyunçunun məharətinə ehtiyac hiss edir. Britaniyanın Türkiyəyə artan simpatiyası ikitərəfli gündəlikdəki strateji tərəfdaşlığı və güclü əməkdaşlığı inkişaf etdirmək zərurəti yaradır. Ehtimal ki, Akarla Uolles həmin konsepsiyanın müdafiə, kəşfiyyat və təhlükəsizlik ölçülərini müzakirə ediblər. Qarşılıqlı maraq doğuran dairə genişdir. İki ölkənin regionlar üzrə müştərək prioritetlərini kateqoriyalaşdıra bilərik. Britaniya ilə Türkiyənin ikitərəfli münasibətlərin çərçivələri regional əməkdaşlıq platformalarına qədər uzanır. Rusiya-Ukrayna müharibəsi, Türkiyə-Yunanıstan gərginliyi məsələsindəki prioritetlərdə mübahisələr olduğu görünür. Ancaq Böyük Britaniya ilə Türkiyə Cənubi Qafqazdan tutmuş Suriyaya qədər geniş coğrafiyada gizli müttəfiqlik statusunda irəliləməyi qarşıya hədəf qoya bilərlər”.

**Ekspert vurğulayıb ki, ikitərəfli münasibətlərdəki problemlərin həcmi də azalmaqdadır:** ”Britaniyanın müdafiə sənayesi məhsullarının Türkiyəyə satışına dair qoyduğu qadağanı aradan qaldırması prioritetlərdə yeni səhifə açır. Türkiyə 2023-cü il prezident seçkisində ölkəyə yönələ biləcək təhdidləri önləmək üçün Britaniya kəşfiyyatının məlumatlarına söykənməyi məqsədəuyğun sayır. Türkiyə Yunanıstanın şişirdilib Ankaraya qarşı üfürülməməsi üçün Britaniyadan dəstək gözləyir. Ancaq Böyük Britaniya da Türkiyədən qarşılıq gözləyir. Ankara İsveç və Finlandiyanın NATO-ya üzvlüyünə maneə yaratmamalıdır”.

**A.Kərimova görə, Azərbaycanın Ermənistanı fakt qarşısında qoyması, Rusiyanın oyun qaydalarındakı rolu, Fransanın cığallığı, İranın kükrəməsi, Gürcüstanın təhlükəsizliyi Britaniya-Türkiyə birgə maraqlarını aktuallaşdırır:** ”Ola bilsin ki, Akarla Uolles Azərbaycana qarşı təzyiqlər və təhdidlərin miqyasını kiçiltmək üçün də müzakirələr aparıblar. Bu, daha çox İranla əlaqəli görünür: Çünki Tehrana qarşı beynəlxalq oyun qaydaları sərtləşdirilir. İranın region ölkələrinə təhdidi artır;

- İsrail İrana qarşı cəbhəni gücləndirir. Britaniya ilə Türkiyə gələcək strateji layihələrin həmmüəllifi olmağın labüdlü məntiqindən yola çıxaraq Azərbaycana dəstəyin formalarını yeniləyə bilərlər”.

**İsmayıl**




Azərbaycanı bərpaolunan enerji mərkəzlərindən birinə çevirmək planları təkcə Azərbaycanın öz enerji təhlükəsizliyi ilə bağlı deyil. Ölkəmizin bərpaolunan enerji mərkəzlərindən birinə çevrilməsi kifayət qədər ixrac marşrutlarına da ehtiyac yaradır. İxrac marşrutlarının da yaradılması üçün paralel olaraq tədbirlər həyata keçirilir. Belə ki, 2022-ci ilin 17 dekabr tarixində Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya tərəfindən Avropa Komissiyası Prezidentinin şahidliyi ilə Gürcüstanın Qara dəniz sahilindən Rumıniyanın Qara dəniz sahilinə qədər "Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsinə dair" Saziş imzalanıb. Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsi Azərbaycandan 4

# Azərbaycanda nəhəng potensial mövcuddur

## Artıq ölkəmiz bərpaolunan enerji sahəsinin inkişaf etdirilməsi üçün çox mühüm konsepsiyalar həyata keçirməkdədir

**"Azərbaycanın əhəmiyyətli ikitərəfli əməkdaşlıq əlaqələri olan ölkələrdən biri də Birləşmiş Ərəb Əmirlikləridir". Bu barədə "Şərq"ə açıqlamasında millət vəkili, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Cavid Osmanov deyib. Deputat bildirib ki, ölkələrimiz arasında mövcud olan münasibətlər strateji əhəmiyyətə malikdir:**

"Yanvarın 16-da Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılış mərasimində çıxışı zamanı Prezident cənab İlham Əliyev iki ölkə arasında olan əlaqələri yüksək qiymətləndirərək Azərbaycanın həyata keçirdiyi enerji siyasəti haqqında geniş məlumat verdi. Ölkəmizin iqtisadi inkişafının əsas göstəricilərindən biri enerji sektorunda əldə edilən uğurlardır. Prezident cənab İlham Əliyevin həyata keçirdiyi düşünülmüş siyasət və uğurlu enerji strategiyası nəticəsində ölkəmizdə enerji təhlükəsizliyi hələ bir neçə il əvvəl təmin olunub. Bu gün Azərbaycan nəinki öz enerji tələbatlarını təmin edir, o cümlədən xam nefti, neft məhsullarını, təbii qazı, neft-kimya məhsullarını və elektrik enerjisini ixrac edir. Artıq ölkəmiz bərpaolunan enerji sahəsinin inkişaf etdirilməsi üçün çox mühüm konsepsiyalar həyata keçirməkdədir. Bu sahədə Azərbaycanda nəhəng potensial mövcuddur. Ölkəmiz quruda 27 qiqavatlıq külək və günəş enerjisi, 2020-ci ildə Vətən müharibəsi zamanı azad edilmiş ərazilərdə 10 qiqavatlıq külək və günəş enerjisi, həmçinin Xəzər dənizinin Azərbaycan sektorunda 157 qiqavatlıq külək enerjisi imkanlarına sahibdir. Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılış mərasimində çıxışı zamanı Prezident cənab İlham Əliyev qeyd etdi ki, Azərbaycanın bərpaolunan enerji ilə bağlı proqramı tamamilə fərqli gündəliyə malikdir və bu, ölkəmizin ixracını şaxələndirməyə şərait yaradacaq".

**Parlament üzvü vurğulayıb ki, Azərbaycan Cənub Qaz Dəhlizi kimi meqa enerji layihəsini reallaşdırmış ölkədir:** "Ölkəmiz bu meqa layihəni cəmi iki il əvvəl öz tərəfdaşları ilə başa çatdırıb və Azərbaycandan Cənubi Avropaya gedən inteqrasiya edilmiş, uzunluğu 3500 kilometr olan boru kəmərləri sistemini qurub. Məhz belə bir layihənin reallaşması nəticəsində ölkəmizin təbii qaz ixracı artmaqdadır. Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılış mərasimindəki çıxışında Prezident cənab İlham Əliyev bu haqda danışarkən diqqətə çatdırdı ki, əgər Azərbaycanın təbii qaz ixracı 2021-ci ildə 19 milyard kubmetr idisə, bu il 24 milyard kubmetrə çatacaq. Artım gələcəkdə də davam edəcək. Ölkə başçısı onu da bildirdi ki, qiqavatlıq yaşıl enerjini nəql etmək imkanını yaradacaq".

**C.Osmanov qeyd edib ki, Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılış mərasimində çıxışı zamanı Prezident cənab İlham Əliyev Azərbaycanda investisiya mühitinin çox müsbət olduğunu və ölkəmizin neftqaz sektoruna böyük sərmayələr cəlb etdiyini vurğuladı:** "Ölkə başçısı artıq Azərbaycan dövlətinin hədəfində bərpaolunan enerji sahəsini inkişaf etdirmək olduğunu qeyd edərək "Masdar" və Azərbaycan Dövlət Neft Şirkəti arasında 4 qiqavatlıq külək və günəş enerjisi stansiyalarının yaradılmasına dair razılaşma imzalanmasından bəhs etdi. "Masdar" və Azərbaycan Dövlət Neft Şirkəti arasında bu razılaşma qısamüddətli bir layihədir. Lakin ortamüddətli layihələr nəticəsində güclər 10 qiqavata qədər artırılacaq. Prezident cənab İlham Əliyev bildirdi ki, "Masdar" şirkəti ilə aparılan əməkdaşlıq Azərbaycanı yaşıl enerjinin çox mühüm ixrac mənbəyinə çevirəcək. Həmçinin ölkəmizin beynəlxalq enerji şirkətləri ilə imzaladığı anlaşma memorandumları və sazişlər Azərbaycana 22 qiqavata qədər külək və günəş enerjisini istehsal etmək imkanını yaradacaq".

İsmayıl Qocayev

# Daş hasarlar sökülür

## Naxçıvanda evlərin magistral yola çıxışları təmin edilir



**"Naxçıvan Muxtar Respublikasında həyata keçirilən dəyişikliklərin ilk müsbət nəticəsini artıq doğulduğum Şahbuz rayonunun Kolanı kəndinin sakinləri öz həyatlarında hiss etməyə, görməyə başlayıblar".**

Bu barədə Ədalət Partiyasının sədr müavini Elxan Şükürlü deyib. Partiya təmsilçisi qeyd edib ki, kəndi iki yerə bölən və əhalinin gediş-gəlişinə ciddi çətinliklər yaradan, el arasında "Çin səddi" adını almış hasarlarda söküntü işləri aparılıb: "Evlərin magistral yola çıxışları təmin edilib. Bu hasarın çəkilməsini və çıxış qapılarının qoyulmamasını hər şeydən pul çıxarmağa çalışan tamahkar, acgöz muxtar respublika və rayon rəhbərliyi onunla əsaslandırmışdılar ki, guya, kənd əhalisinin mal-qarası yola çıxaraq, nəqliyyatın iti hərəkətinə mane olur, yolu zibilləyir. Guya köhnə evlər kəndin gözəl mənzərəsini korlayır... Nəticədə, magistralın kənarında yerləşən evlərin yola çıxışları daş hasarla bağlanmışdı. Alternativ yollarla gediş-gəliş isə xeyli uzaq və çətin idi. Zəhmətkeş camaatımızın üzünə bağlanmış qapılar, nəhayət ki, açılır...".

İsmayıl

# General Ermənistanla sərhədə getdi

## Baş Qərargah rəisi mütəmadi olaraq hərbi hissələrin və bölmələrin döyüş hazırlığını yoxlayır

**Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev, Quru Qoşunların komandanı general-leytenant Ənvər Əfəndiyev və nazirliyin digər vəzifəli şəxsləri "N" saylı hərbi hissədə olublar. Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.**



Hərbi xidmətə yeni çağırılan gənclərin ən çox toplandığı hərbi hissədə şəxsi heyətin qəbulu prosesi, onların ilkin təməl hazırlığı kursunda iştirakı və hərtərəfli təminatı yoxlanılıb.

General-polkovnik K.Vəliyev gənc əsgərlərin vətənpərvərlik ruhunda tərbiyə olunması, qanun və hərbi nizamnamələrin tələblərinə ciddi riayət etməsi, həmçinin onların intensiv döyüş hazırlığının təşkili və keçirilməsi məsələlərinə xüsusi diqqət yetirilməsi ilə bağlı vəzifəli şəxslərə tapşırıqlar verib.

Daha sonra Müdafiə Nazirliyinin rəhbər heyəti Ermənistanla sərhəddə yerləşən komando və digər hərbi hissələrdə olub, şəxsi heyətin intensiv dağ hazırlığı məşğələsini izləyib.

Yüksək dağlıq və çətin relyefli ərazidə hazırlıq keçən komandolarla görüşən general-polkovnik K.Vəliyev hərbi qulluqçuların praktik məşqlərində əsas diqqətin döyüşün aparılmasının üsul və taktikasına yönəldilməsini tapşırıb.

Baş Qərargah rəisi hərbi qulluqçuların peşəkar hazırlıq səviyyəsinin yüksəldilməsi, təlim və məşqlərin intensivliyi və keyfiyyətinin daha da artırılması ilə aləqədar aidiyyəti vəzifəli şəxslərə müvafiq göstərişlər verib.

**Məsələyə münasibət bildirən ehtiyatda olan polkovnik Şair Ramaldanov "Şərq"ə vurğulayıb ki, burada elə bir fövqəladə hal yoxdur:**

"Baş Qərargah rəisi mütəmadi olaraq hərbi hissələrin və bölmələrin döyüş hazırlığı, şəxsi heyət və silah-sursatların vəziyyəti ilə tanış olur. Yəni bunlar baş qərargah rəisinin gündəlik fəaliyyətidir. Həmçinin bizim baş qərargah rəisi general-polkovnik Kərim Vəliyev kabinet generalı olmayıb.

Onun bütün ömrü hərbi hissələrdə keçib. Kərim Vəliyev təcrübəli generaldır və öz təcrübələrini ordumuzla bölüşür. Digər tərəfdən hazırkı vəziyyət də sakit deyil. Qarşıda çox böyük işlər var. Buna cənab Prezident İlham Əliyev də son müsahibəsində toxunmuşdu. Ordumuz daha da güclənir. Bu isə daha çox nəzarət tələb edir".

Ölkəmizə qarşı təhlükənin olub-olmadığına gəlincə, Ş.Ramaldanov qeyd edib ki, Ermənistan kimi qonşun varsa, hər zaman ehtiyatlı olmalısan: "Bu səbəblə də ordumuz hər şeyə hazır olmalıdır".

Nihat Müzəffər

# Ermənistan boşuna gözləyir

## İndi Fransanın arsenalında Azərbaycana qarşı elə də güclü təzyiq imkanları qalmayıb



**"Qarabağdakı separatçılar timsah kimi saxta gözyaşı axıdaraq hələ də dünya birliyini və ayrı-ayrı ölkələrin liderlərini "blokada" yalanına inandırmağa çalışırlar. Lakin gözləntiləri doğrulmur, ümidləri puç olur".**

*Bu sözləri Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib. Partiya sədri bildirib ki, bu vəziyyət həm separatçıları, həm də İrəvandakı revanşistləri bir qədər də qəzəbləndirir:* "Bu gün Fransanın İrəvandakı səfirliyinin qarşısında Makronun əleyhinə təşkil olunan etiraz aksiyasını da məhz həmin qəzəbin və xəyal qırıqlığının nəticəsi kimi yozmaq lazımdır. Etirazçılar Fransa liderini Laçın dəhlizindəki situasiyaya səssiz qalmaqda ittiham ediblər. Eyni zamanda aksiyaçılar rəsmi Parisi real addım atmağa, ermənilərə kömək etməyə çağırıblar. Bu da əsl erməni riyakarlığının bir ayrı təzahür formasıdır. Onlar Fransanı həm ittiham edir, həm də köməyə çağırırlar. Bu cür əcaib davranış tərzini yalnız ermənilərdən gözləmək olar. Çar Rusiyasının və sovet Rusiyasının sayəsində "müstəqil xalq"a çevrilən və özgə torpaqlarının hesabına özünə "dövlət" quran nankor ermənilər bu gün Rusiyadan üz çevirib Fransanın qanadı altına sığınmaq istəyirlər. Lakin Fransa da onların ümidlərini doğrultmur. Ona görə də ermənilər bir yandan Fransaya qəzəb püskürür. Digər yandan isə yenə də Fransanı köməyə çağırmaqda davam edirlər. Onlara elə gəlir ki, bu çağırışın hansısa real nəticəsi olacaq və Fransa həqiqətən də onların köməyinə yetişəcək. Lakin bu, illüziyadan başqa bir şey deyil. Ermənilər illüziyalarla yaşamağa vərdiş ediblər".

**Siyasətçi vurğulayıb ki. Fransanın Ermənistana və Xankəndidəki separatçılara nə hərbi, nə də iqtisadi cəhətdən ciddi kömək etməsi mümkündür:** "Paris bu aralar Azərbaycana qarşı edə biləcəyi hər cür pisliklərə əl atdı. Ermənilərin ümidlərini az da olsa doğrultmaq üçün hətta BMT Təhlükəsizlik Şurasında ölkəmizin əleyhinə qətnamə də qəbul etdirməyə çalışdı. Lakin bütün cəhdləri boşa çıxdı. İndi Fransanın arsenalında Azərbaycana qarşı elə də güclü təzyiq imkanları qalmayıb.

Ermənilər boşuna gözləyirlər. İstər separatçıların, istərsə də rəsmi İrəvanın Laçın yolundakı ekoaksiyanı dayandırmaq üçün beynəlxalq güclərin vasitəsilə Azərbaycana göstərdiyi bütün diplomatik təzyiqlər iflasa uğrayıb. Bu da bir daha onu göstərir ki, sözügedən ekoaksiyanın davam etdirilməsi öz müsbət nəticələrini verir. İndi separatçıların başçıları həm özlərini, həm də girov vəziyyətində saxladıqları mülki erməniləri xilas etmək üçün Fransa, Rusiya, İran və başqa qüvvələrə bel bağlamaq əvəzinə rəsmi Bakının tələbləri ilə razılaşmağa və separatçı fəaliyyətə son qoymağa qərar verməlidirlər. Vardanyanın avantürist oyunları dayandırılmalıdır və o, Xankəndini təcili tərk etməlidir. Əks halda, Azərbaycanın kiçikmiqyaslı antiterror əməliyyatı keçirməsi Vardanyanı da, digər separatçıları da bitirəcək".

**Ə.Hüseynov qeyd edib ki, "Artsaxın 120 min erməni əhalisi blokadada yaşayır" kimi bleflərə də son qoyulmalıdır:** "Rusiya sülhməramlıları da, separatçıların özləri də yaxşı bilir ki, hazırda sülhməramlıların müvəqqəti nəzarət zonasına daxil olan Azərbaycan ərazilərində nəinki 120 min, heç 40 min nəfər də erməni yaşamır. Onların real sayı uzağı, 15-20 min civarında ola bilər. Separatçıların "120 minlik demoqrafik blef"i də acı gülüş doğurur. İndi bu cür uydurmalara hətta Fransa kimi ənənəvi ermənipərəst bir ölkənin siyasi liderləri, parlamentariləri də inanmırlar. Başqa sözlə desək, erməni saxtakarlığı indi onların öz əleyhinə işləməyə başlayıb.

Rəsmi Bakı hazırkı kursu davam etdirdikcə və təzyiqləri artırdıqca, separatçıların müqaviməti get-gedə daha da azalacaq və qırılacaq. Separatçılarla yalnız təzyiq dili ilə davranmaq lazımdır. Onlarla nə danışıqlara getmək, nədəki hər hansı güzəştə getmək olar. Son 50 ildə dünyada separatçılıq problemi ilə üzləşmiş ölkələrin heç biri (hətta Fransanın özü də) separatçılara qətiyyən güzəştə getməyib. Biz də beynəlxalq təcrübədən istifadə edib Qarabağda separatçılığın kökünü tamamilə kəsməliyik. Zatən beynəlxalq hüquq da bizim tərəfimizdədir".

İsmayıl Qocayev

# Qafqazda nüfuz dairəsi uğrunda savaş genişlənir

## Avropa İttifaqının yeni missiyası bu dəfə təkcə Ermənistan-Azərbaycan sərhədini deyil, bütün Ermənistan ərazisini müşahidə edəcək



**Avropa İttifaqı 1 aydan sonra Ermənistana yeni müşahidə missiyası göndərəcək. Bu dəfə missiya 2 aylıq deyil, 2 illik müddətə gələcək. Məlumata görə, missiya fevralın 20-də başlayacaq. Məsələ Avropa İttifaqı səfirlərinin görüşündə müzakirə ediləcək, yekun qərar isə gələn həftə Avropa İttifaqının XİN başçılarının iclasında veriləcək.**

Qərar ötən həftə Avropa Şurasının Siyasət və təhlükəsizlik komitəsi, həmçinin müşahidə missiyaları ilə məşğul olan əsas orqan - Böhranlı idarəetmə üzrə mülki işlər komitəsi tərəfindən təsdiqlənib. Keçən ilin oktyabrında Azərbaycan-Ermənistan sərhədinə göndərilən 40 nəfərlik qrupdan fərqli olaraq, budəfəki missiya bütün Ermənistan ərazisini əhatə edəcək. Missiya üzvlərinin 200 nəfərdən ibarət olacağı, o cümlədən silahsız olacağı vurğulanır.

**Politoloq Turab Rzayev bildirib ki, budəfəki missiya 2022-ci ilin oktyabrında göndərilən 2 ay müddəti olan və 40 nəfərdən ibarət mülki missiyadan fərqli olacaq. Ekspert diqqətə çatdırıb ki, bu dəfə avropalı müşahidəçilər təkcə Ermənistan-Azərbaycan sərhədini deyil, bütün Ermənistan ərazisini müşahidə edəcəklər:** "Necə müşahidəçinin gəlməsi və tam olaraq mandatları hələ bəlli deyil. Ancaq təxminən 200 müşahidəçinin ola biləcəyi qeyri-rəsmi mənbələrdə bildirilir. Azərbaycan-Ermənistan sərhədində hərbi baza yarada bilməyən Fransa, daha sonra rus sülhməramlıların Rusiya ilə birlikdə BMT mandatı altında sülhməramlı kontingent ilə dəyişdirilməsini tələb etmişdi. Həm anqlosakson blokdan (ABŞ, Böyük Britaniya), həm də Rusiyadan dəstək almayan bu həqdən sonra, Fransa Ermənistandakı rus hərbi kontingentinin beynəlxalq koalisiya ilə (yenə BMT mandatı altında) əvəz edilməsi təklifini vermişdi. Bu təklif İrəvan tərəfindən də dəstəklənir. Gümrüdə rus hərbi bazasının əleyhinə etiraz aksiyaları keçirilən bu ərəfədə, Aİ-nin bu addımını Qafqazda nüfuz dairəsi uğrunda savaşda növbəti gediş kimi də görmək olar".

İsmayıl Qocayev

## Güneyin səsi



# Bir an belə Təbrizi unutmadı

### Mədinə Gülgün Güney Azərbaycan Milli Azadlıq Hərəkatının fəal iştirakçısı və mübariz şeirləri ilə ömrü boyu inqilabın carçısı olub

**Xalqımızın tarixi yaddaşını silkələyən vətənpərvərlik şeirləri ilə oxucuların rəğbətini qazanan şair Mədinə Gülgünün anadan olmasının 97-ci ildönümüdür.**

**Mədinə Ələkbərzadə (Gülgün) 1926-cı il yanvarın 17-də Bakıda fəhlə ailəsində anadan olub. Burada ibtidai məktəbi bitirib. 1938-ci ildə ailəliklə Cənubi Azərbaycanın Ərdəbil şəhərinə köçüblər. Sonra Təbriz şəhərində yaşayıb, əmək fəaliyyətinə burada toxuculuq karxanasında başlayıb. O, həyatı dərk etməyə başladığı andan Azərbaycan xalqının milli hüquqlarının pozulduğunun əyani şahidi olub.**

”Azərbaycan” qəzeti redaksiyasında xüsusi müxbir işləyən Mədinə Gülgün 1945-1946-cı illər Cənubi Azərbaycan Milli Azadlıq Hərəkatının fəal iştirakçısı və öz mübariz şeirləri ilə ömrü boyu həmin inqilabın carçısı olub.

Uşaq yaşlarından ədəbiyyata böyük həvəsi olan M. Gülgün məktəb səhnəsində göstərilən kiçik tamaşalarda iştirak edib, bəzən göstərilən bu tamaşalara özünün yazdığı kiçik şeir parçalarını da əlavə edib. İlk qələm sınaqları 40-cı illərin əvvəllərindən qəzet və jurnal səhifələrində görünməyə başlayıb. Mədinə Gülgün şeirlərini 1945-ci ildə Təbrizdə ”Vətən Yolunda”, ”Azərbaycan” qəzetində çap etdirib. Mədinə Gülgünün ”Təbrizin baharı” adlı ilk şeir kitabı 1950-ci ildə işıq üzü görüb. Bu kitabda 1945-49-cu illər ərzində yazdığı şeirlər toplanıb. Mədinə Gülgünün ilk yaradıcılığı Azərbaycan xalqının azadlıq və milli istiqlaliyyət uğrunda apardığı mübarizə illərinə təsadüf edir. Milli-azadlıq hərəkatının geniş vüsət aldığı və İkinci Dünya müharibəsi dövründə ədəbiyyata gələn Mədinə Gülgünün ilk şeirlərində nəzərəçarpan cəhət bu şeirlərin xalqın həyatı və mübarizəsi ilə bağlı olması idi. Vətən sevgisi, azadlıq həsrəti onun yaradıcılığının əsas leytmotivini təşkil edir. Onun şeirlərində başlıca yer tutan hicran, həsrət motivləri də əsasən buradan irəli gəlirdi. Mədinə Gülgünün poeziyasının ağır sınaqlarla dolu olan yollarında ilk addımlarını atdığı gündən onun lirikasının ötdüyü nəğmələrin baş ahəngini xalqa, doğma vətənə övlad məhəbbəti, oxucularını ağ günlərə və qurtuluş uğrunda döyüşlərə çağırış nidalarının başlıca motivlərini təşkil edib.

Məhrumiyyətlərə, çətinliklərə, sıxıntılara baxmayaraq, Mədinə Gülgün ömrü boyu şair qəlbini, səmimiyyətini, insanlara sevgisini qoruyub saxlaya bilib.

**”Yer üzündə bir evim var,**
**Ocağı daim yanar.**
**Onun sönməz şöləsindən,**
**Ürəyim işıqlanar”-,**

deyən şair ailəsini, balalarını, ocağını hifz eləməklə yanaşı, gözəl sənət nümunələri də yarada bilib.

Şairin yaradıcılığının əsas motivini Cənub həsrəti, xəfif məhəbbət, vətənpərvərlik, zəriflik kimi duyğular təşkil edib.

M.Gülgün Şimalda yalnız Cənubun həsrətini çəkməyib, bir vətəndaş kimi vətən təəssübü çəkib. Bu vacib cəhət Cənubdan gəlmiş bütün şairlərin yaradıcılığı üçün səciyyəvidir. M.Gülgün poeziyasının diqqəti cəlb edən cəhətlərindən biri də budur ki, bu poeziyada Cənuba bağlılıq, Cənub məhəbbəti, Cənub təəssübü özünün Şimal qarşılığı ilə tamam müştərəkdir. Bu cəhət şairin ”Nənələr və nəvələr”, ”Xatirələrimin nəğməsi”, ”Ürəklərdə, nəğmələrdə yaşayanlar”, ”Dastana çevrilmiş həyat” kimi poemalarına da xasdır. Mədinə Gülgünün ən yaxşı şeirlərində bədii ümumiləşdirmə gücü şəxsi hiss-həyəcanlara ümumxalq mahiyyəti verə bilir.

Mədinə Gülgün Təbrizə, Savalana, Marağaya müraciət edəndə, ya da Mərənddən, Salmasdan danışanda bu qədim toponimlərimiz müəyyən bir coğrafi ərazini bildirmir, Cənubun rəmzinə çevrilir:

**Siz ey Ərdəbildə qalan günlərim,**
**illərin əlində talan günlərim” -**

uzun-uzun illərin əlində talan olan o günlər yalnız Ərdəbildə qalmayıb, bütöv cənubda qalıb.

Lirik şeirləri və mahnıları dillər əzbəri olan M.Gülgün yaradıcılığında Təbriz xiffəti, Araz nisgili, Savalan həsrəti əsas leytmotivlər kimi diqqəti cəlb edir:

**Qayıdaydıq o Təbrizli günlərə,**
**Arzularım qönçəsindən çıxaydı,**
**Saçlarıma yaz yağışı yağaydı...**

Zərif bir poetik ahənglə dilə gətirilən bu nisgil onun bütün varlığına hopub, həyatını, fəaliyyətini yönləndirib. Təsadüfi deyil ki, bu iki Güney həsrətli şairin - Balaş Azəroğlu və Mədinə Gülgün ailəsinin ilk övladı dünyaya gələndə ona ”Araz” adını veriblər. Bununla da yolları yaxın etməyə, üstündəki Xüdafərin körpüsüylə məhz Arazın onları əlçatmaz Təbrizə, ünyetməz Savalana qovuşduracağına inam ifadə etmişdilər. Bir-birinin fikir, amal, sənət dostu, ömür-gün yoldaşı olan bu iki dəyərli şairimiz həsrətə birlikdə tab gətirə bilib, yaradıcılıqlarında eyni hiss və duyğuların poetik ifadəsini veriblər. Balaş Azəroğluna həsr etdiyi şeirdə Mədinə Gülgün yazır: ”Nə yaxşı ki, el dərdini qoşa çəkdik”.

”Bir torpaq üstündə dogulmuşuq biz, bir qolum Bakıdır, bir qolum Təbriz” deyən M.Gülgün ömrünün çox hissəsini Bakıda yaşasa da, bir an belə Təbrizi unutmur, köksündə bütöv bir Vətən sevgisini gəzdirirdi.

Xalq şairi Rəsul Rza 1978-ci ildə ”Azərbaycan qadını” jurnalında dərc olunmuş ”Həsrət, ümid, inam nəğmələri” adlı məqaləsində M. Gülgün poeziyasını geniş təhlil edərək şairin poeziyasında Təbriz mövzusunun önəmli yer tutduğunu göstərirdi. Mədinə Gülgünün həzin nəğmələrinin oxucunu ”incikli xatirə yolları ilə” Təbrizin qoynuna apardığını vurğulayan Rəsul Rza yazıb: ”Sən Təbrizin küçələrinin, məhəllələrinin adını çəkirsən. Mən onlardan çoxunu görə bilmədim. Mənim xəyalımda Təbriz bir xalqın tarixi, dünya mədəniyyətinə yazdığı zəngin-zəngin səhifələr, cəngavərlik dastanları, Saib şeirinin ölməz sətirləri, Xiyabanilərin, Səttarxanların, Bağırxanların, Firidunların tunclaşmış heykəli kimi bir əzəmətli, canlı abidə olaraq qalıb. Sən Təbrizin küçələrini mənim gözlərimdə bir də canlandırdın. Təbrizin həsrətini qəlbimdə yenidən oyatdın. Dodaqlarımda iki kəlmə titrədi: ”Təbrizim - mənsizim”.

Doğma Azərbaycanın hər qarışını sevən, Vətənə heyranlığını, məftunluğunu şeirlərində dolğun bədii boyalarla ifadə edən Mədinə Gülgünün bir ömür boyu sürən həsrəti də bu sevgiylə bərabər yaşadı:

**Yuvası var körpəcə bir quşun da,**
**Mənası var qayanın da, daşın da.**
**Nə yaxşı ki, könlüm coşub-daşanda**
**Nəğmə burda havalanan olubdur,**
**İlk beşiyim Azərbaycan olubdur.**

***Yaxud:***

**Ey doğma vətənim, doğma torpağım**
**Mən əgər quş olsam yuvam səndədir.**
**Sənsən xilaskarım, sənsən dayağım,**
**Loğman təbiətli havam səndədir.**

Təbriz mövzulu şeirləri içərisində qəm, kədər yükü daha ağır olan, insanı dərdin dərinliyinə çəkən poetik örnək kimi ”Telefon xətlərində” şeiri diqqəti cəlb edir. Şeirdə şairin həyatında baş verən təsirli bir hadisədən bəhs olunur. Mədinə Gülgün otuz illik ayrılıqdan sonra Arazın o tayında qalan anası ilə ilk dəfə danışır. Bu şeirin yaratdığı poetik ovqatı, duyğular təlatümünü sözlə ifadə etmək imkansızdır. Şair yazır:

**Telefon xətlərində bir səs düşdü dünyaya,**
**Telefon xətlərində birləşdi ana-bala.**
**Bir ananın səsindən sanki üşüdü dünya,**
**Bir balanın səsindən göy ağladı az qala.**
**...Sona çatdı nəhayət telefon görüşümüz,**
**Elə bil bir qəriblik yayıldı Yer üzünə.**
**Görüşərkən təzədən ayrılmalı olduq biz,**
**Anam da, mən də sonsuz nağıla döndük.**

M.Gülgünün əsərləri hələ sağlığında bir sıra xarici dillərə tərcümə olunub. Dünya xalqlarının azadlıq və istiqlaliyyət uğrunda mübarizəsini bir humanist şair kimi daim izləyən, kəsərli sözləri ilə onların səsinə səs verən şairin Bakıda və Moskvada ”Təbrizin baharı”, ”Savalanın ətəklərində”, ”Sülhün səsi”, ”Yadigar üzük”, ”Təbriz qızı”, ”Firudin”, ”Dünyamızın sabahı”, ”Durnalar qayıdanda”, ”Dünya şirin dünyadır”, ”Çinar olaydı”, ”Arzu bir ömürdür”, ”Yora bilməz yollar məni”, ”Könlümü ümidlər yaşadır” və onlarca digər şeir kitabları dərc olunub. Onun lirik şeirlərinə mahnılar bəstələnib. ”Şeirdi həyatda sərvətim mənim” deyən şairin yazdığı bu kitablarda başlıca mövzu insan taleyi, azadlıq hissi, Təbriz həsrəti, övladlarını qəlbdən sevən bir ana qəlbinin arzu və istəkləridir.

Yaşının ağbirçək çağlarında Vətən dərdli şairin yaralı kövrək ürəyinə daha bir ağır yara dəydi. Belə ki, 1990-cı il 20 Yanvar faciəsi onun poeziyasına qəmli, kədərli sətirlərlə hopub. Şəhidlərə də ürəkdən ağlayaraq ”Bu şəhid balaların ölən vaxtı deyildi!...” deyərək onların dərdini də öz dərdinə qatıb, qan-yaş tökub, fəğan qoparıb.

Mənalı ömrünü bütövlükdə Vətəninin azadlığı, millətinin taleyi üçün yaşayan Mədinə Gülgün 1991-ci il fevralın 17-də Bakıda vəfat edib, Fəxri xiyabanda dəfn olunub.

**Şəymən Bayramova**

---



# Vardanyana inam qalmadı

### Proseslər Qarabağın tamamilə dövlətimizin nəzarətinə keçməsi yönündə irəliləyir

**Son günlər Ermənistan mediasında separatçıların lideri Araik Arutyunyanın ”dövlət naziri” Ruben Vardanyanı vəzifəsindən azad edəcəyi, həmçinin özünün də istefa verəcəyi haqqında xəbərlər yayılır. İddia olunur ki, İrəvan Vardanyanı uzaqlaşdırmaqla ikinci plana atılmış separatçı Araikin mövqeyini yenidən gücləndirməyə çalışır. Xankəndidə separatçılar arasında qarşıdurma Ermənistan siyasilərin tərəfindən də etiraf olunur.**

Parlamentin vitse-spikeri, ”Hayastan” fraksiyasından olan deputat İşxan Saqatelyan bildirib ki, onların səhv etmək şansı yoxdur: ”Qarabağda müstəsna siyasi-sosial konsolidasiya vacibdir. Hansısa şəxsiyyətin ətrafında deyil, əleyhimizə olan planlar ətrafında birləşmək lazımdır. Qarabağ siyasi mənfəət, şəxsi ambisiyalar, haqq-hesab çürütmək yeri deyil”.

Qeyd edək ki, Ruben Vardanyanın Qarabağa gəlməsindən sonra həm buradakı separatçılar, həm də Xankəndi ilə İrəvan arasında münasibətlər gərginləşməyə başlayıb. Azərbaycanlı ekoaktivistlərin Laçın yolunda bir aydan artıqdır davam edən aksiyası isə bu qarşıdurmanı daha da gücləndirib. Ermənistan hakimiyyəti və Qarabağ separatçılarının bir çox məsələlərə, o cümlədən Laçın yolu ilə bağlı məsələyə baxışları da ciddi fərqlənir. Paşinyan və onun Qarabağdakı əlaltıları hesab edirlər ki, Qarabağda təhlükəsizliyə Rusiya sülhməramlıları cavabdehdirlər və Laçın yolu ilə bağlı məsələni də onlar həll etməlidirlər. İkincisi, Ermənistan rəhbərliyi bu məsələni demək olar ki, Azərbaycanın daxili işi sayır və Qarabağ ermənilərini məsələni rəsmi Bakı ilə yoluna qoymağa çağırışlar. Üçüncüsü, Laçın yolu aksiyasından istifadə edən Ermənistan rəhbərliyi sülhməramlıları tənqid etməklə kifayətlənmir, həmçinin ölkə daxilində anti-Rusiya əhval-ruhiyyəsini gücləndirməyə davam edirlər. Təsadüfi deyil ki, bu günlərdə mətbuat konfransı keçirən Baş nazir Nikol Paşinyan Rusiyanın Ermənistanın təhlükəsizliyinə qarant deyil, təhdid olduğunu bəyan etdi. O, həmçinin ölkəsinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının təlimlərinə qatılmayacağını bildirdi. Nəhayət, son iki həftə ərzində Ermənistan daxilindəki Rusiya əleyhdarları 3 aksiya keçiriblər və Rusiyanın Gümrüdəki 102 saylı bazasını bloklamağa cəhd ediblər. Bir sözlə, Ermənistanda Rusiya hərbi qüvvələrinin ölkədən çıxarılması tələbləri intensivləşib. Ermənistan rəhbərliyi Qərbyönlü kursu davam etdirir və bütün imkanlardan yararlanaraq, hakimiyyət dəyişikliyinin ”Vardanyan ssenarisi”ni əngəlləməyə çalışır. İrəvanda yaxşı başa düşürlər ki, Ruben Vardanyanın mövqelərinin Qarabağda güclənməsi, onun qol-qanad açması milyarderin ambisiyalarını da gücləndirəcək. O, Rusiyanın xeyir-duası ilə Ermənistanda hakimiyyət uğrunda mübarizəyə başlayacaq. Ruben Vardanyana gəlincə, o, Qarabağa gəldiyi gündən Paşinyanın Rusiya və rus sülhməramlıları ilə bağlı tənqidi fikirlərinə qarşı çıxmağa məşğuldur. Vardanyan Laçın yolundakı vəziyyətə görə Paşinyandan fərqli olaraq nəinki sülhməramlıları tənqid edir, əksinə, onların sayının və Qarabağda qalma müddətinin artırılmalı olduğunu bildirir.

> “Azərbaycanın güclənən mövqeyi Paşinyanı da ağıllandırır. Baş nazir Azərbaycanla sülh müqaviləsində maraqlıdır”

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev ”Şərq”ə açıqlamasında bildirib ki, əslində Qarabağda qarşıdurma gözlənilən idi. Professorun sözlərinə görə, Qarabağda separatçılarla arzuolunmaz ”qonaq” arasında mövcud gərginliyin əsas səbəblərindən biri də Laçın-Şuşa yolunda bir aydan çoxdur davam edən etiraz aksiyasıdır:** ”Aksiyadan öncə, yəni Laçın yoluna nəzarət etmək imkanımız yaranmazdan qabaq separatçılar kənar dairələrlə pərdəarxası müxtəlif oyunlar oynayırdılar. Rahat gediş-gəliş imkanları olduğu üçün öz məkirli planlarını icra edirdilər. Aksiya başlayandan sonra Laçın yoluna nəzarət gücləndi və diqqət mərkəzində oldu. Nəticədə bəzi ölkələrin Ermənistandan Qarabağa silah-sursat və təxribatçı daşıması baş tutmadı. Qarabağdakı separatçılar siyasi-iqtisadi, o cümlədən psixoloji iflasa uğradılar. Real faktlar gün işığına çıxdı. Həm İrəvan hökuməti, həm də Qarabağın qondarma qurumları vəziyyətin gərginliyini dərk etdilər. Bakı-Ankara ortaqlığının yürütdüyü ağıllı və uzaqgörən siyasət artıq öz bəhrəsini verməkdədir. Ermənistan Rusiya-İran duetindən Azərbaycan-Türkiyə tandeminə qarşı istifadə etməyə çalışsa da, buna nail ola bilmədi. Azərbaycanın güclənən mövqeyi Paşinyanı da ağıllandırır. Baş nazir Azərbaycanla sülh müqaviləsində maraqlıdır. Məncə, Vardanyan-Arutyunyan mübarizəsi Moskvanın ssenarisidir. Məqsəd milyarder Vardanyanın pulları hesabına erməni toplumunu ələ almaq və onu Ermənistanda hakimiyyətə gətirmək idi. Problem ondadır ki, Ukrayna ilə savaş səbəbindən Kremlin indiki siyasi-iqtisadi gücü buna imkan vermir. Vardanyan da cığallıq edir, çünki vədlərə aldanaraq, kifayət qədər vəsait xərcləsə də, heç nə əldə etmədi. Qarabağdakı qızıl-mis yataqlarının istismarı da baş tutmadı. Vardanyan nəinki Ermənistanı, heç Qarabağı elə keçirə bilmədi. Qarşıdurmanın açıq müstəviyə keçmə səbəbi budur”.

**C.Nuriyev hesab edir ki, ümumən, proseslər Qarabağın tamamilə Azərbaycan dövlətinin nəzarətinə keçməsi yönündə irəliləyir:** ”Separatçılar arasındakı çaşqınlıq, gərginlik, qarşıdurma da bunun nəticəsidir. Batan gəmidən birinci siçanlar qaçır. ”Böyük siçan” Vardanyan da canını qurtarmaq üçün batan gəmini tərk etməyə tələsir. Azərbaycan pərdəarxası gedən şahmat oyununu qazanmaq üzrədir. Bu gedişlə təkcə Qarabağdakı separatçıların deyil, Ermənistan hökumətinin də ”fatihəsi” verilməkdədir. Əgər Paşinyan müqaviləni imzalanmasını yubadarsa, yaxud imtina edərsə, Ermənistan adlı ”siyasi meyiti” ortadan qaldıran tapılmayacaq”.

**İsmayıl Qocayev**

---

# "Avropanın göndərdiyi müşahidəçilər bizi narahat etməlidir"

### Fuad Abbasov: “Əgər onlar torpaqlarımıza müşahidəçi göndərmək istəyirlərsə, Bakı üzərindən yollamalıdırlar”



“Mənə elə gəlir ki, bizim Xarici İşlər Nazirliyi və aidiyyəti qurumlar Avropaya mövqeyimizi çatdıracaqlar”

**Avropa İttifaqı bir aydan sonra Ermənistana yeni müşahidə missiyası göndərəcək. Bu dəfə missiyanın iki aylıq deyil, azı iki illik müddətə göndərilməsi nəzərdə tutulur.**

Bu barədə Ermənistan KİV-i xəbər verir.

Bildirilir ki, Avropa İttifaqının Siyasət və Təhlükəsizlik Komitəsi bu barədə layihəni ötən həftə qəbul edib.

Keçən ilin oktyabrında Azərbaycan-Ermənistan sərhədinə göndərilən 40 nəfərlik qrup kimi, budəfəki missiya da Ermənistan ərazisində yerləşəcək.

Nə qədər müşahidəçinin gələcəyi hələ rəsmi olaraq açıqlanmasa da, missiya üzvlərinin 200 nəfərdən ibarət olacağı vurğulanır.

Avropa tərəfindən Ermənistana istenilən sayda əməkdaşın göndərilə biləcəyini deyən tanınmış jurnalist, siyasi şərhçi Fuad Abbasov ”Şərq”ə bildirib ki, Aİ-nin rəsmi İrəvanla özəl əlaqələri var: ”Paşinyanı iqtidara gətirən də Avropa və ABŞ sərmayəsi olub. Paşinyan müstəqil olduğunu bir daha vurğulamaq üçün missiya qrupunun sayını artırır. Bununla da Avropanın Ermənistandakı müşahidəçiliyini möhkəmləndirməyə çalışır.

Onların Azərbaycanın Qarabağ bölgəsinə gəlməsi isə bizdə sual yarada bilər. Biz onsuz da Xankəndi-Laçın yolunu bağlamışıq və Azərbaycanın ekoloqlarının nəzarəti olmadan oradan heç bir missiya həyata keçirilə bilməz.

Əgər Avropanın göndərdiyi müşahidəçilərin başlıca gəliş səbəbi Azərbaycana təzyiq göstərmək, Xankəndi-Laçın yolunu açmaqdırsa, bu bizi narahat etməlidir.

Azərbaycan müstəqil bir dövlət olaraq öz torpaqlarına düşmən mövqeyindən çıxış edən ölkənin müşahidəçilərinin gəlməsinə icazə verməməlidir.

Əgər onlar bizim torpaqlarımıza müşahidəçi göndərmək istəyirlərsə, Bakı üzərindən yollamalıdırlar. Mənə elə gəlir ki, bizim Xarici İşlər Nazirliyi və aidiyyəti qurumlar Avropaya mövqeyimizi çatdıracaqlar”.

**Nihat Müzəffər**

# NATO-ya yol Ankaranın tələbinin həllindən keçir

## İsveç və Finlandiyada sığınacaq tapan terrorçular Türkiyənin təhlükəsizliyinə təhdid törədirlər



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sözçüsü İbrahim Kalın İsveç və Finlandiyaya NATO ilə bağlı vaxt qoyub. Kalın bildirib ki, İsveç və Finlandiyanın NATO-ya müraciətlərinin Türkiyə tərəfindən ratifikasiyası üçün lazım olan şərtləri yerinə yetirmək üçün təxminən 2-2,5 ay vaxt var. Onun sözlərinə görə, prezident seçkiləri öncəsi Türkiyə Böyük Millət Məclisinin tətilə çıxmasına bu qədər vaxt qalıb.**

Prezident sözçüsü vurğulayıb ki, Türkiyə parlamentinin sənədi təsdiqləməsi tərəflərin Ankaranın tələblərini nə dərəcədə tez yerinə yetirməsindən asılıdır. O, həmçinin əlavə edib ki, əsasən dəyişikliklər Stokholmdan tələb olunur: "İsveç keçən il Madriddə imzalanmış sazişin həyata keçirilməsinə tam sadiqdir. Lakin ölkənin məhkəmə sisteminə terrorizmin yeni təriflərini tətbiq etməyə imkan verəcək qanunların daxil edilməsi üçün daha altı ay lazımdır. Nəticədə Stokholm terror təşkilatlarına İsveçin artıq onlar üçün təhlükəsiz sığınacaq olmadığına dair siqnal göndərməlidir". Bundan əvvəl Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib ki, Stokholm PKK terror təşkilatını dəstəkləyənlərə qarşı qətiyyətli tədbirlər görməyincə, Ankara İsveçin NATO üzvlüyünə dəstək verməyəcək. Ötən gün Türkiyənin milli müdafiə naziri Hulusi Akar da bu məsələdən danışıb. General bildirib ki, bu ölkələrdən tələblərin icrası gözlənilir: "Biz namizəd ölkələrin NATO-ya üzv olmaq istəyinə hörmət etdiyimiz kimi, onlar da Türkiyənin təhlükəsizlik maraqlarına hörmət etməlidirlər".

İsveç baş naziri Ulf Kristersson isə Ankara ilə danışıqlar prosesində ciddi dəyişikliyin olduğunu düşünmür. O iddia edib ki, Türkiyə hakimiyyəti İsveçin NATO-ya daxil olması üçün qeyri-mümkün şərtlər irəli sürür: "Türkiyə bizim söz verdiyimizi yerinə yetirdiyimizi təsdiqləyir, eyni zamanda bizim verə bilməyəcəyimiz və ya vermək istəmədiyimiz şeyi istəyir. Stokholm Türkiyəyə hərbi texnikanın ixracına qoyulan qadağanı ləğv edib, terrorla mübarizə haqqında yeni qanun qəbul edib və Ankaranın istədiyi bəzi şəxsləri Türkiyəyə ekstradisiya edib". Finlandiyanın xarici işlər naziri Pekka Haavisto bəyan edib ki, təmsil etdiyi hökumət ölkənin NATO-ya qoşulmasının ratifikasiyasını İsveçdən ayrıca başa çatdırmağa razı olmayacaq: "Biz NATO-ya üzv olmaq üçün birlikdə müraciət etdik və bu prosesi birlikdə başa vuracağıq. İsveç bizim ən yaxın dostumuz və tərəfdaşımızdır. İsveç olmadan Alyansa qoşulmaq bizim maraqlarımıza uyğun deyil". Qeyd edək ki, Finlandiya və İsveç Rusiyanın Ukraynadakı xüsusi hərbi əməliyyatı fonunda 2022-ci il mayın 18-də alyansa qoşulmaq üçün NATO-nun baş katibinə müraciət edib. Rəsmi Ankara İsveçin PKK terror təşkilatını himayə etdiyini bildirərək, müraciəti ratifikasiya etməkdən imtina edib. Macarıstan və Türkiyə istisna olmaqla NATO-nun 28 üzvü İsveç və Finlandiyanın Şimali Atlantika Alyansına qoşulmasını parlamentdə ratifikasiya edib.

**Politoloq Azər Rəşidoğlu "Şərq"ə bildirib ki, Türkiyə mövqeyində tam haqlıdır. Analitikə görə, terrorçular, Türkiyə ədliyyə sistemindən qaçanlar İsveç və Finlandiya kimi ölkələrdə özlərinə asanlıqla sığınacaq tapırlar:** "Beləleri insan haqlarını əllərində bayraq edib, öz çirkin əməllərini davam etdirirlər. Onlar Türkiyənin təhlükəsizliyinə təhdid törədirlər. NATO öz üzvlərinin təhlükəsizliyini təmin edən dövlətlər birliyidir. Finlandiya və İsveç NATO-ya üzv olmaq istəyirsə, daxili qanunlarını, öz hüquq prinsiplərini dəyişməli və Türkiyənin təhlükəsizliyinə təhlükə törədənləri himayə etməkdən əl çəkməlidir. Finlandiya və İsveç tərəfindən Türkiyənin tələblərini icra etmək mürəkkəb məsələdir. Bu da həmin dövlətlərdə təqib olunan, sığınacaq istəyən insanlara qucaq açmaq kimi onillər ərzində təşəkkül tapan ənənə ilə bağlıdır. Bu ənənədən xilas olmaq üçün onlar separatçılar, terror əməliyyatı törədənlərə qucaq açmayacaqları ilə bağlı geniş ictimai müzakirələrə başlamalıdırlar. Bundan sonra məsələni qanun səviyyəsində həll etməlidirlər. Yəni demokratik dəyərlərə sahib bu iki ölkə ictimai müzakirə aparmadan, xalqın rəyini soruşmadan, parlamentdə geniş debat aparmadan öz daxili qanunlarını NATO və ya Türkiyənin tələbilə bir anda dəyişə bilməz".

**İsmayıl Qocayev**

# Qərb sakit və susqundur

## Əgər AB-nin Saakaşvili üzərindən hansısa gediş planı olsaydı, Tbilisi hökumətinə sanksiya tətbiq edərdi



**Son günlər Gürcüstanın siyasi gündəmində müzakirələrə səbəb olan bir fikir dolaşmaqdadır. İddia edilir ki, gürcü hökuməti sabiq Prezident Mixail Saakaşvilini həbsdən azad edərsə, yaxud müalicəsi üçün başqa ölkəyə getməsinə şərait yaradarsa, Gürcüstanın Avropa Birliyinə girməsinə "yaşıl işıq" yandırılacaq.**

Tiflis meri Kaxa Kaladze məsələyə sərt münasibət bildirib. Mer deyib ki, Gürcüstanın AB-yə üzvlüyü yolunda irəliləyişə mane olsa belə, keçmiş Prezident Mixail Saakaşviliyə güzəştlərin əleyhinədir: "Deyirlər ki, Mixail Saakaşvilini azad etməsək, Gürcüstan AB-yə namizəd statusu almayacaq. Mən öz münasibətimi deyə bilərəm: biz qətiyyən belə bir status istəmirik, əgər məcburi şərtdirsə, saxlasınlar. Bizim konstitusiyamız var, elə qanunlar var ki, biz ilk növbədə onlara əməl etməliyik". Xatırladaq ki, bu söhbət ötən həftə Polşa Seyminin Mixail Saakaşvilinin xaricdə müalicə olunması ilə bağlı qətnamə qəbul etməsindən sonra gündəmə gəlib.

**AĞ Partiyanın sədri Tural Abbaslı "Şərq"ə deyib ki, Avropa Birliyinin, yaxud NATO-nun rəsmi Tbilisi qarşısında belə bir şərt qoyması inandırıcı deyil. Partiya rəhbərinin sözlərinə görə, Qərb bəzən qeyri-rəsmi şərtlər, tələblər irəli sürür və bunun dəfələrlə şahidi olmuşuq. Amma məsələ ondadır ki, sabiq prezident Mixail Saakaşvilinin siyasi fiqur kimi çəkisi Qərb və hərbi alyansın nəzdində o qədər də böyük deyil:** "Yəni konkret bu məsələ Gürcüstan qarşısında əsas şərt kimi qoyula bilməz. Rusiyanın Ukraynaya hərbi təcavüzündən sonra Avropanın və NATO-nun prioritetləri dəyişib. Əvvəlki prinsiplərlə hərəkət edilmir. Nəinki Gürcüstanın, heç ərazisi işğala məruz qalmış, fəlakətə sürüklənmiş Ukraynanın belə AB-yə, NATO-ya üzvlük məsələsindən söhbət getmir. Belə məqamda Gürcüstanın Qərb strukturlarına real üzvlüyü ümumiyyətlə gündəmdə deyil. Ola bilər, müəyyən dairələr sadəcə bəhanə üçün bunu səsləndiriblər. Ancaq reallıq odur ki, ABŞ və Avropa Gürcüstana görə Rusiya ilə qarşı-qarşıya gəlmək, onsuz da kritik olan mövcud vəziyyəti daha da gərginləşdirmək istəmir".

***Ukraynanın taleyi ortadadır, Gürcüstanın Qərb strukturlarına real üzvlüyü ümumiyyətlə gündəmdə deyil***

**T.Abbaslı qeyd edib ki, böyük dövlətlərin münasibəti, siyasəti hansısa bir şəxsə görə redaktə edilmir:** "Özü də həmin şəxs keçmiş, yəni hazırda heç bir vəzifə, status daşımayan siyasətçidirsə, Gürcüstanda və Ukraynada nüfuzunu itiribsə, Qərbin yanaşması ümumiyyətlə dəyişməyəcək. Əgər AB-nin Saakaşvili üzərindən hansısa gediş planı olsaydı, onu diqqətə alsaydı, xeyli vaxtdır həbsdə olan, səhhətində problemlər yaşanan Saakaşviliyə görə Tbilisi hökumətinə sanksiya tətbiq edərdi. Ancaq Qərb bu məsələyə çox sakit və susqun yanaşdı. Görünən odur ki, hazırkı geosiyasi vəziyyətdə Avropa Birliyi, yaxud NATO Gürcüstanı ümumiyyətlə qəbul etməyi düşünmür. Ən azından müvəqqəti olaraq kənarda saxlamağı məqsədəuyğun sayırlar".

**İsmayıl Qocayev**

# Həkimlərin əlləri "təmizlənir"

## Bundan sonra özəl tibb müəssisələri açıq fəaliyyət göstərməlidir




**Vergi Məcəlləsində edilmiş son dəyişikliklərin bir hissəsi özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən göstərilən xidmətlərlə bağlıdır. "Özəl tibb fəaliyyəti haqqında" Qanuna əsasən, bu fəaliyyət 2 formada - özəl tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən həyata keçirilə bilər.**

Dövlət Vergi Xidmətinin məlumatına görə, özəl tibbi praktika - ali və ya orta tibb təhsili olan şəxslər tərəfindən hüquqi şəxs yaratmadan xüsusi razılıq əsasında müvafiq ixtisasa uyğun həyata keçirilən tibbi yardımın göstərilməsi üzrə fəaliyyət hesab edilir. Vergi Məcəlləsinin 16.1.8-ci maddəsinə əsasən, tibb müəssisələri tərəfindən göstərilən tibbi xidmətlər üzrə pul hesablaşmaları nəzarət-kassa aparatları vasitəsilə aparılmalıdır. Tibb fəaliyyəti sahəsində vergidən yayınmanın miqyasının azaldılması, gəlirlərin leqallaşdırılması istiqamətində işlərin davam etdirilməsi məqsədilə Vergi Məcəlləsində edilmiş son dəyişikliklərlə, tibb müəssisələri ilə yanaşı, özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən göstərilən tibbi xidmətlər üzrə də pul hesablaşmalarının nəzarət-kassa aparatları vasitəsilə həyata keçirilməsi müəyyən edilib. Həmin şəxslər tərəfindən verilən çeklər əsasında ödənilmiş ƏDV-nin bir hissəsi tibb xidmətlərinin istehlakçılarına geri qaytarılacaq. Bununla yanaşı, "Nağdsız hesablaşmalar haqqında" Qanunun tələblərini pozmaqla tibbi xidmətlərin dəyərini müəyyən olunmuş limitdən artıq nağd qaydada qəbul edən özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslərə maliyyə sanksiyaları tətbiq ediləcək.

***Vergi Məcəlləsinə edilən dəyişiklik özəl tibb müəssisələrində vergidən yayınmaların qarşısını almaq məqsədi daşıyır***

**Vergi Məcəlləsinə edilən dəyişiklik həkimlərin fəaliyyətinə necə təsir edəcək? Məsələ ilə bağlı "Şərq"ə danışan həkim-terapevt Şahvələd Məmmədov qeyd etdi ki, bu dəyişiklik tibbin hər hansı sahəsi üzrə məşğul olan bütün həkimləri, tibb işçilərini və özəl tibb müəssisələrini əhatə edir:**

- Vergi Məcəlləsinə edilən dəyişiklik özəl tibb müəssisələrində vergidən yayınmaların qarşısını almaq məqsədi daşıyır. İstər icbari tibbi sığortanın əhatə etdiyi, istərsə də əhatə etmədiyi tibbi xidmətlər zamanı vətəndaşlara çek ödənməlidir. Ödəmə nəzarət-kassa aparatına daxil olursa, vətəndaşa çek ödənilir, avtomatik olaraq da vergi ödənişi həyata keçmiş olur. Bəzən özəl tibb müəssisələrində nağd ödəmələrin qeydiyyatdan kənar aparıldığını inkar edə bilmərik. Ödənişlər bəzən kassaya daxil olmur. Bu isə vergidən yayınmalara, ödənişə görə vətəndaşa əlavə dəyər vergisinin geri qaytarılmasına mane olur. Hesab edirəm ki, məqsəd ödənişlərdə şəffaflığın təmin edilməsidir. Pasiyent də hansı tibbi xidmətə görə nə qədər ödəniş etdiyini, tibbi xidmətin dəyərini bilməlidir. Bu dəyişiklik özəl tibb müəssisələrinin daha açıq fəaliyyətini təşviq edəcək.

**Məlahət Rzayeva**

# Tibb işçilərinə hücumlar artıb

## "Azərbaycan xalqı indi az qala bir-birinin qanına susayıb"



**Yevlax xəstəxanasının Vərəm şöbəsinin müdiri Bəyaz Cabbarovun qətlə yetirilməsi ilə bağlı bəzi təfərrüatlar məlum olub. Məlumata görə, 11 yanvar 2023-cu ildə, axşam saatlarında Yevlax Mərkəzi Rayon Xəstəxanasının Vərəm şöbəsinin müdiri 1958-ci il təvəllüdlü Bəyaz Cəbbarov Yevlax şəhər Əhmədağa Baxşıyev küçəsində olan mənzilində öldürülüb.**

O, 20-dən çox bıçaq zərbələri alıb və ağır halda xəstəxanaya aparılsa da, artıq dünyasını dəyişdiyi məlum olub. Hadisənin başvermə səbəbləri isə hələ ki məlum deyil. Faktla bağlı Yevlax rayon Prokurorluğunda araşdırma aparılır.

Qeyd edək ki, B.Cabbarov 1958-ci ildə Yevlax rayonunun Qaraoğlan kəndində anadan olub. 1976-1982-ci illərdə Azərbaycan Tibb Universitetinin Müalicə işi fakültəsində təhsil alıb. 1983-cü ildən etibarən Yevlax rayonunda yerləşən Vərəm Əleyhinə Dispanserdə həkim, 2000-ci ildən həmin müəssisədə baş həkim vəzifəsində fəaliyyət göstərib. 2017-ci ildən bu günədək Yevlax Rayon Mərkəzi Xəstəxanasının Vərəm şöbəsinin müdiri işləyib.

Hadisə ilə bağlı cəmiyyətdə ikili rəy formalaşıb. Kimi bu olayı tənqid edib, kimi də sol ayaq əvəzinə sağ ayağı kəsən həkimin timsalında bu cür qətl hadisələrinə dəstək ifadə edib.

**Məsələ ilə bağlı "Şərq" danışan pediatr Vaqif Qarayev bildirib ki, yeni insan tipləri yaranıb. Onun sözlərinə görə, bu qədər mehriban və humanist olan Azərbaycan xalqı indi az qala bir-birinin qanına susayıb:** "Son zamanlarda baş verən hadisələrin günahını internetdə, sosial şəbəkələrdə görürəm. Biri hədəfə çıxan kimi, haqdan-nahaqdan tənqid etməyə başlayırlar. Həkimin ölümündən sonra da bunun bir daha şahidi oldum. Bəziləri insan həyatından bəhs olunduğunu tamamilə unudaraq "bütün həkimlər öldürülməlidir" deyirdi.

Tanımırlar, bilmirlər. Həmin həkim necə insan olub, günahı varmı-yoxmu, bunlar marağlı deyil. Cəmiyyət məsələni araşdırmadan tamamən xəbərsiz hökm verməyi sevir. Bu qədər aqressivliyə səbəb nədir, bilinmir. Əvvəllər daha çox ödəmə ilə bağlı həkim-pasiyent münaqişələrinə rast gəlirdik. İndi yavaş-yavaş sığorta bu məsələni yoluna qoyur. Düzdür, həkimlərin hamısı "süddən çıxmış ağ qaşıq" deyil. Vəzifəsini düzgün yerinə yetirməyənlər ola bilər. Belə bir anda öldürmək yerinə məhkəməyə müraciət etmək lazımdır.

Həmin şəxslər qanun qarşısında cavab verməlidir. Qardaş ölkə Türkiyədə bu mövzuya daha çox rast gəlinir. Yerli türk gənclər artıq tibb sahəsində oxumaq istəmirlər. Səbəbi də belə vəhşiliklər edən insanlardı. Tək həkimlərə qarşı yox, digər hadisələrdə də bu kimi davranışlarla qarşılaşırıq. Yaxın zamanlarda məktəbdə iki uşaq arasında olan davaya münasibət bildirən 10 insandan 9-u "Mən o uşağı öldürərəm" deyirdi. Biri də çıxıb demirdi ki, uşaqlara yardım edək.

Öldürməyə, dava etməyə və zorakılıq göstərməyə niyə bu qədər meyilliyik, bilinmir".

**Şərqiyyə Nəbi**

# Ermənilərə siyasi şillə

## Fransa Parlamentinin spikeri Ermənistanda həqiqəti dedi

**"Fransa Milli Assambleyasının sədri Yael Braun-Pive İrəvanda ermənilərə həqiqəti deməyə məcbur olub". Bu barədə Bakı Politoloqlar Klubunun rəhbəri Zaur Məmmədov deyib.**

Analitik qeyd edib ki, ABŞ Nümayəndələr Palatasının keçmiş spikeri Nensi Pelosinin səfərinin ardından, bu dəfə Fransada yaşayan ermənilər yaxşı bir pul mükafatı müqabilində Milli Assambleyanın sədrinin Ermənistana səfərinə nail olublar. Lakin səfərin yekunlarına dair mətbuat konfransı zamanı, hazırda Ermənistan hakimiyyətinin ən çox ümid etdiyi dövlətin, BMT TŞ-nin üzvü, Fransanın nümayəndəsi həqiqəti deməyə vadar olub: "Baxmayaraq ki, hazırda həmin xanımın təmsil etdiyi parlament 2 il əvvəl Qarabağla bağlı bəyanatda tamamilə əksini bildirirdi. Jurnalistin sualına cavab verən Yael Braun-



Pive Fransanın beynəlxalq hüquqa əsasən, Qarabağı "müstəqil respublika" kimi tanımadığını bəyan etdi. Nikol Paşinyan da əvvəlki çıxışında "Dağlıq Qarabağ"ın hamı tərəfindən Azərbaycan Respublikasının ərazisi kimi tanındığını qeyd etmişdi. Xatırladım ki, Paşinyanın mətbuat konfransı zamanı separatçılarla bağlı müxtəlif açıqlamaları Ruben Vardanyan və Nikol Paşinyan arasında münasibətləri daha da gərginləşdirib. Hazırda hər iki tərəfin media resursları və hakimiyyətinin üzvləri bir-birini günahlandırmaqla məşğuldurlar. Hətta iş o yerə çatıb ki, Vardanyan çıxışların birində Sarkisyan-Koçaryan seçicilərini "Artsax"ın yanında olmağa və mübarizə etməyə çağırıb. Fransa parlamentinin spikerinin Ermənistanda Qarabağla bağlı verdiyi bəyanat bütün dünyadakı erməniləri yuxudan ayıldan siyasi şillə olmalıdır. Nə Rusiya, nə Fransa, nə də İran separatçıları müstəqil qurum kimi tanıyır. Bütün dünya Qarabağı Azərbaycan ərazisi kimi tanıyır. Hazırda Vardanyan klounun fəaliyyəti isə yerli əhalinin istismarı və bədbəxtçiliyi üçün atılan addımlardan başqa bir şey deyil".

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# Azad edilmiş ərazilərə qayıdış sürətlənir

## Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında olan faydalı qazıntı yataqları iqtisadi dövriyyəyə cəlb ediləcək



**Ermənistan Azərbaycanın torpaqlarını işğal etməklə yanaşı, onun təbii sərvətlərinə də ziyan vurub. Bunun bariz nümunəsi Azərbaycanın qızıl yataqlarının qanunsuz işlənməsi ilə bağlı həyata keçirdikləri fəaliyyətdir. İşğal dövründə həmin ərazidə düşmənin müxtəlif texnogen fəaliyyəti ətraf mühitə çox ciddi ziyan vurub. Qızıl və digər yeraltı, yerüstü yataqlar talan edilib, heç bir texnoloji normalar qorunmadan istismar olunub. Bununla da iqtisadi və ekoloji baxımdan ölkəmizə əhəmiyyətli dərəcədə ziyan dəyib.**

Uzun illər Azərbaycan bu fəaliyyətə qarşı dövlət səviyyəsində etirazını bildirib. Eyni zamanda ölkənin ictimai təşkilatları da bu istiqamətdə öz narahatlıqlarını dəfələrlə müxtəlif platformalarda ifadə ediblər. Ermənilərin belə azğınlaşmasının əsas səbəbi beynəlxalq təşkilatlar səviyyəsində onların işğalçılıq siyasətinin pislənməməsi, Azərbaycanın ərazilərinin zəbt edilməsi, eləcə də həmin ərazilərdə silahlı dəstələrin mövcudluğu olub. Acınacaqlısı budur ki, istismarda xarici şirkətlər, xüsusilə də erməni mənşəli biznesmenlərin yaratdığı şirkətlər yaxından iştirak edərək beynəlxalq konvensiyalar və Azərbaycan qanunlarını ciddi şəkildə pozublar.Otuz ilə yaxın bir dövrdə ölkəmizin strateji əhəmiyyətli mineral yataqları, o cümlədən, qızıl yataqları Ermənistan və onun havadarları olan xarici şirkətlərlə birgə istismar edilib, Azərbaycanın milli sərvətləri talan edilib. 44 günlük Vətən müharibəsi torpaqların işğaldan azad edilməsi ilə yanaşı, həmin milli sərvətlərimizin də qorunmasına zəmin yaradıb.

İşğaldan azad edilmiş ərazilərin ölkənin iqtisadi və sosial inkişafında tarixi mövqeyi bərpa edilməli, yeni bölgə iqtisadi fəaliyyətin aparıcı həlqələrindən birinə çevrilməli və ölkənin digər regionlarına uyğun inkişaf səviyyəsinə malik olmalıdır. Regionun dayanıqlı iqtisadi inkişafı burada potensial resurslarla təmin edilməsindən asılı olacaq, təbii resurs bolluğu və qazanılan tarixi imic bu ərazilərə sərmayə cəlbinə imkan verəcək. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunun sosial-iqtisadi inkişafının sabit və tarazlı dinamikası, turist biznes resurslarının potensialı, onlardan istifadə, ərzaq təhlükəsizliyi qlobal səviyyədə aktual olan məsələlər sırasındadır.

Hazırda azad edilmiş ərazilərə qayıdış həm də bu yataqların yenidən ölkəmiz üçün istifadəsinə imkan verir. Bu gün ölkəmiz üçün mühüm olan hadisələrdən biri Qarabağın azad edilmiş ərazilərində mis, qızıl, digər faydalı yataqların işlənməsidir.

Real sosial-iqtisadi və siyasi dəyişikliklər bizi geoloji kəşfiyyat işlərinin strateji planı və prioritetlərində bir sıra ciddi düzəlişlər etməyə məcbur edib. Bura işğaldan azad edilmiş regionlarımızda zəngin faydalı qazıntı yataqları, yeraltı su ehtiyatlarının axtarışı daxildir. Əsas prioritet işğaldan azad edilmiş ərazilərdə mineral xammal ehtiyatlarının kəşf edilməsi, monitorinqi, yenidən qiymətləndirilməsi və xalqımızın istifadəsinə verilməsi olacaq.

Qeyd edək ki, növbəti ilin ölkə üzrə xammala olan tələbatı nəzərə alınaraq Geoloji İnformasiya Fondunda saxlanılan məlumatlar təhlil edilib və növbəti il üçün hərraca çıxarılması planlaşdırılan yataq sahələri razılaşdırılması üçün aidiyyəti dövlət qürumlarına göndərilib. Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin İdarə Heyətinin sədr müavini Elçin Məcidovdünən keçirilən mətbuat konfransındabildirib ki, 2023-cü ildə Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin əsas prioritet sahələrindən biri Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında olan faydalı qazıntı yataqlarının iqtisadi dövriyyəyə cəlb edilməsidir: "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına "Böyük Qayıdış"la bağlı təsdiq edilmiş Tədbirlər Planına əsasən, agentlik faydalı qazıntı yataqlarının istifadəyə verilməsi və yer təkinin mühafizəsinin təmin edilməsi ilə bağlı işləri həyata keçirəcək. İlkin mərhələdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yenidənqurma və bərpa ilə bağlı tikinti layihələrinin həyata keçirilməsi üçün həmin ərazilərdə yerləşən ümumi yayılmış faydalı qazıntı yataqlarından istifadə edilməsinə icazələrin verilməsi nəzərdə tutulur.

Agentlik olaraq bu sahədə yeni innovativ yanaşmanın tətbiq olunması üçün 2023-ci ildə "Yerin təki sahəsinə dair elektron qeydiyyat və nəzarət sistemi" istifadəyə veriləcək: "Yaradılmış platformanın həm yer təki sahəsində fəaliyyət göstərən istismarçılara, həm də agentliyin fəaliyyəti üçün bir sıra üstünlükləri var. Bildirmək istərdim ki, hazırlanmış platforma vasitəsilə yer təki sahəsində fəaliyyət göstərən istismarçılar bütün əməliyyatları elektron formada yerinə yetirə biləcək".

Onun sözlərinə görə, hesabatların təqdim edilməsi, razılaşdırılması zəruri olan sənədlərin və digər müraciətlərin şəxsi kabinet vasitəsilə onlayn formada göndərilməsi təmin ediləcək: "Platformanın digər üstünlüyü maarifləndirici məlumatların yer təki istismarçılarına verilməsidir. Belə ki, platformada yerin təki ilə bağlı mövcud qanunvericilik aktları və bu sahədə müəyyən edilmiş norma və standartlar barəsində məlumatlar öz əksini tapacaq. Həmçinin gələcəkdə mövcud qanunvericilik aktlarında dəyişiklik edildikdə istismarçının şəxsi kabinetinə həmin məlumatlar göndəriləcək".

Geoloji Kəşfiyyat Agentliyinin İdarə Heyətinin sədri Əli Əliyev isə işğaldan azad edilmiş ərazilərdəki qızıl, gümüş və mis yataqlarının ehtiyatını açıqlayıb.

Söyüdlü qızıl yatağında 112,5 ton resurs olduğunu vurğulayan Ə.Əliyev Vejnəlidə 6,5 ton qızıl, 10,75 ton gümüş, 4 min tona yaxın mis, Dəmirli yatağında 457 min ton mis, Qızılbulaq yatağında 13,7 ton qızıl olduğunu da əlavə edib: "Lakin işğalçı rejim tərəfindən istismar edilmiş həcmlər haqqında bu gün konkret rəqəm demək doğru olmaz. Bu rəqəmlər hazırda hesablama mərhələsindədir. İstismarla bağlı dövlətin müvafiq qurumları tərəfindən beynəlxalq təşkilatlara müraciət hazırlanıb".

Ə.Əliyev bildirib ki, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdə yataqların qanunsuz istismarına etiraz olaraq başlanan aksiya dekabrın 3-dən davam edir. Hazırda bununla bağlı danışıqlarda hər hansı bir nəticə əldə olunmayıb: "İşğal dövründə Ermənistan və onun xarici havadarları əsasən iri yataqların istismarı ilə məşğul olublar. Beynəlxalq konvensiyalar və Azərbaycan Respublikasının qanunları pozularaq ölkəmizin ərazisində mineral xammal ehtiyatlarının istismarı aparılıb. Burada əsasən 30-a yaxın ölkənin şirkətləri iştirak edib. Bunlar Kanada, Avstraliya, ABŞ, İngiltərə, Almaniya, İsveçrə, Rusiya, Hindistan kimi ölkələrin şirkətləridir. Mineral xammal ehtiyatları qanunsuz istismar edilərək Ermənistana və oradan xarici ölkələrə daşınıb.

Əsasən iri qızıl və mis yataqlarında ciddi istismar işləri aparılıb. Həmin yataqlar Kəlbəcər rayonu ərazisindəki "Söyüdlü" və "Qızılbulaq" qızıl yataqları, Tərtər rayonu ərazisindəki "Dəmirli" mis yatağı, eyni zamanda Zəngilan rayonu ərazisindəki "Vejnəli" qızıl yatağıdır. Burada əsasən "Sterlite Gold" LTD, "Base Metals" LTD, "First Dynasty Mines" LTD, "GeoproMining Gold" Company, "Armenian Copper Program", "Vallex Group", "Global Gold", "Vedanta Resources" şirkətləri fəaliyyət göstərib".

**Şəymən Bayramova**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Müharibə dağıdıcı mərhələyə keçir

### Rusiya 2 milyonluq ordu yaratmağa çalışır

**"Rusiya-Ukrayna müharibəsi dağıdıcı mərhələyə keçməkdədir. Bu ilin yazında tərəflərin qəti hücuma keçəcəkləri barədə məlumatlar yayılır". Bu barədə politoloq Sədrəddin Soltan deyib. Ekspert bildirib ki, hətta Rusiyanın səfərbərlik planı ilə bağlı da müxtəlif informasiyalar gündəmi zəbt edib:**

"Britaniyanın "The Times" nəşri yazıb ki, Rusiya 500 min nəfərlik səfərbərlik planı hazırlayır və qərar yaxın günlərdə qəbul olunacaq: "Orduya çağırılanlar yeni genişmiqyaslı hücum üçün cəbhəyə göndəriləcəklər". Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsindən isə bildirilib ki, Rusiya 2 milyonluq ordu yaratmağa çalışır, bunun üçün növbəti dəfə səfərbərlik elan olunacaq. Cəbhədə vəziyyət gərginləşdikcə müharibəyə Rusiyadakı cəzaçəkmə müəssisələrindəki məhbusların da cəlb olunduğu barədə məlumat yayılır. Bildirilib ki, bu fəaliyyətlə daha çox Rusiyanın "Vaqner" Özəl Hərbi Şirkəti məşğul olur. Şirkətin sahibi, Rusiya Prezidenti Vladimir Putinin ən yaxın adamı sayılan Yevgeni Priqojin məhbuslara Ukraynada müharibədə 6 ay iştirak qarşılığında əfv vəd edir. Bu günlərdə Tacikistana Rusiya cəzaçəkmə müəssisəsində məhbus həyatı yaşamış, Ukraynada müharibədə ölmüş daha bir nəfərin meyiti gətirilib və qohumlarına təhvil verilib".

**Analitikə görə, B.Davlatşoyev Rusiya tərəfdən döyüşüb Ukraynada ölən ilk məhbus deyil:** "2017-ci ilin məlumatına əsasən, Rusiya həbsxanalarında xarici ölkələrin 29 min 397 vətəndaşı saxlanılır. Onların 90 faizi ağır və xüsusilə ağır cinayətlər törədiblər. Həmin ilin statistikasına əsasən, birinci yerdə 8002 məhbusla Tacikistan ilk sırada dayanır. Ondan sonrakı yerləri 6 min 362 məhbusla Özbəkistan, üçüncü yerdə isə 4 min 761 məhbusla Ukrayna tutur".

**İsmayıl**

# Narahatlığa əsas yoxdur

### Vətəndaşların yaşayış yerini dəyişərkən olduqları yerdə qeydiyyata düşməsi çox vacibdir

**Son günlər sosial şəbəkələrdə rayondan Bakıya gələn və 2 həftədən çox qalan şəxslərin yaşadıqları yerə yaxın polis bölməsində qeydiyyata düşməli olduqları ilə bağlı məlumatlar yayılıb. Əks halda onların cərimələnəcəyi iddia edilir.**

Daxili işlər Nazirliyi (DİN) son günlər müzakirə olunan vətəndaşların olduğu yer üzrə qeydiyyat məsələsinə aydınlıq gətirib.

DİN-in Mətbuat xidmətindən "Şərq"ə daxil olan məlumata görə, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Qanunun tələbinə görə, daimi yaşayış yerindən kənarda 60 gündən artıq müddətdə yaşamaq istəyən vətəndaş həmin yerə gəldikdən sonra 7 iş günü ərzində yaşayacağı ərazinin polis orqanına tələb olunan sənədlərlə müraciət etməlidir. Vətəndaş olduğu yerdən getdikdə polis orqanı onu müvəqqəti qeydiyyatdan çıxarır. Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında qanunvericiliyin pozulması İnzibati Xətalar Məcəlləsinin 563-cü maddəsi ilə məsuliyyətə səbəb olur. Vətəndaş sözügedən qaydalara əməl etmədiyi zaman ona xəbərdarlıq edilir və ya 30 manat məbləğində cərimə olunur".

Polis idarə və şöbələrinin inzibati binalarında müvəqqəti qeydiyyatda olanların qeydiyyatdan çıxarılaraq daimi yaşayış yeri üzrə qeydiyyata alınmalarına gəldikdə isə qeyd olunub ki, 2000-ci illərin əvvəllərində yaşayış yeri olmayan, məhkəmə qətnaməsi əsasında qeydiyyatdan çıxarılan, mülkiyyət hüququnu təsdiqləyən sənədi olmayan evlərdə yaşayan və bu kateqoriyadan digər şəxslər polisin inzibati binalarında müvəqqəti qeydiyyata alınırdılar. Lakin ötən dövrdə həmin şəxslərin bir çoxu sonradan müvafiq sənədləri olan evlərdə və ya mənzillərdə yaşasalar da, polisin inzibati binalarından qeydiyyatdan çıxmaq üçün subyektiv səbəblərdən müraciət etməyiblər. Ona görə də qeydiyyatın dəqiqliyini təmin etmək, bu sahədəki pərakəndəliyi aradan qaldırmaq məqsədilə polisin inzibati binasında qeydiyyatda olan hər bir şəxsin uzun illər qeydiyyatda qalmasının səbəbləri, faktiki yaşayış yerinin olub-olmaması araşdırılıb və nəticələrindən asılı olaraq qanunauyğun tədbirlər görülüb. Xüsusi vurğulanmalıdır ki, vətəndaş yalnız faktiki yaşayış yeri olduqda və ya yaxın qohumlarının razılığı ilə onun yaşadığı ünvana qeydiyyata alınması mümkün olduğu halda polisin inzibati binasından qeydiyyatdan çıxarılır və dərhal olduğu yer üzrə qeydiyyata alınır.

Hüquqi sənədi olmayan ünvanlarda yaşayan şəxslərin evlərinin sənədləşdirilməsi barədə isə aidiyyəti dövlət orqanlarına müraciət etmək tövsiyə olunur.

**Demokratiya və İnsan Hüquqları Komitəsinin hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə isə "Şərq"ə açıqlamasında müvafiq məsələlərin həllində narahatlığa heç bir əsas olmadığını deyib. Onun sözlərinə görə, bu cür hüquqi prosedurlar yalnız qanunun tələblərinə uyğun həyata keçirilir:** "Sosial şəbəkələrdə aparılan müzakirələrdə bəzi vətəndaşların bundan narahat olduğunu, gələcəkdə hansı problemlərlə üzləşib- üzləşməyəcəklərinə dair sorğu-sual etdiklərini mən də gördüm. Təəssüflə qeyd etməliyəm ki, bu gün yüz minlərlə insan Bakı şəhərində qeydiyyatsız yaşayıb, müqaviləsiz işləyir. Bu isə birmənalı qanun pozuntusudur.



*"Bu gün yüz minlərlə insan Bakı şəhərində qeydiyyatsız yaşayıb, müqaviləsiz işləyir. Bu isə birmənalı qanun pozuntusudur"*

"Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin tələbinə görə, daimi yaşayış yerindən kənarda 60 gündən artıq müddətdə yaşamaq istəyən vətəndaş həmin yerə gəldikdən sonra 7 iş günü ərzində yaşayacağı ərazinin polis orqanına tələb olunan sənədlərlə müraciət etməlidir. Bu tələb isə əsassız deyil.

İnkişaf etmiş ölkələrin əksəriyyətində bu məsələdə qanunvericiliyin tələbinə əməl edilir. Gec- tez Azərbaycanda da bu sahədəki boşluqlar aradan qaldırılmalı idi. Vətəndaşların yaşayış yerini dəyişərkən olduqları yerdə qeydiyyata düşməsi çox vacibdir. Qeydiyyat vətəndaşa dövlət tərəfindən çatımlılıq, eyni zamanda həmin vətəndaşa əlçatan olmaq üçün daimi və müvəqqəti yaşamaq niyyətində olduğu ünvanı müəyyənləşdirən bir amildir. Qeydiyyatı zəruri edən daha bir səbəb hərbi səfərbərlik, sosial müavinət, icbari sığorta, evlənmə, boşanma və digər məsələlərlə əlaqədar aidiyyəti dövlət qurumlarından daxil olan müraciətlərə baxılarkən həmin şəxsləri tapmaqda çətinliyin yaranmasıdır.

Əks halda həmin vətəndaşa gedən məktub, məhkəmə çağırışları, seçkilər zamanı səsvermə və digər sənədlərin çatımlılığı çox ciddi problemə çevrilir. Məsələn, Azərbaycanda referendumun keçiriləcəyi ilə bağlı məlumatlar yayılıb. Bu proses baş tutsa, qeydiyyat məsələsindəki çatışmazlıqlar seçki prosesinə mənfi təsir edəcək. İnsanların yaşadığı yerdə qeydiyyata düşməsi cinayətkarlığa qarşı mübarizə zamanı da hüquq-mühafizə orqanlarının daha çevik əməliyyatlar həyata keçirməsinə imkan yaradır.

Paytaxtda taksi fəaliyyəti ilə məşğul olan sürücülərin bir çoxu rayon qeydiyyatındadır. Hətta onların avtomobilinin dövlət nömrə nişanı da rayon seriyasıdır. Bu adam qəza törədib qaçsa, onu tapmaq müşkülə çevrilir. Hüquq-mühafizə orqanları təbii olaraq onun qeydiyyat ünvanına baxır və məlum olur ki, bu şəxs hansısa bir rayonun ucqar kəndində yaşayır.

Dövlət orqanlarının, hüquq-mühafizə əməkdaşlarının işinin operativliyini təmin etmək məqsədilə hər bir vətəndaş yaşadığı yerdə qeydiyyata düşməlidir".

Hüquq müdafiəçisinin sözlərinə görə, analoji problem müqaviləsiz kirayə verilən evlərlə bağlı da xaos yaradır. Bölgələrdən paytaxta axın edən insanların sayı artdıqca, kirayə mənzillərin müqaviləsiz verilməsi problemi daha da dərinləşir: "Kirayə evlərdə yaşayan insanların qeydiyyata alınması, kirayə mənzillərin müqavilə əsasında verilməməsi məsələsində ev sahibləri vergidən yayınmaq üçün maraqlı olmur. Kirayə müqaviləsi notariat tərəfindən qeydiyyata alınarsa, yaşayış sahəsinin kirayə müqaviləsinə əsasən, ev sahibi dövlətə vergi ödəməlidir.

Kirayə qalan şəxslər özləri bunu tələb etməlidir. Amma kirayə mənzillərin ipotekası ilə bağlı məsələlərdə isə bu, müəyyən normalarla tənzimlənəcək. Əgər kirayənişin gələcəkdə yaşadığı evi almaq istəyirsə, bunun üçün qeydiyyat mütləq tələb olunacaq".

**Şəymən**

# Dərman probleminin yaranması gözlənilən idi

## Azərbaycanda da bununla bağlı narahatlıq özünü göstərir



**Yoluxucu xəstəliklərin sayının artması fonunda dünyada dərman çatışmazlığı müşahidə olunur. İranda 170-dən çox adda dərman preparatı çatışmazlığı yaranıb. Dərmanların qiymətinin bahalaşması və qıtlığı səbəbindən pasiyentlər ciddi problemlə üzləşib. Müşahidə olunan soyuq hava şəraiti ölkənin müxtəlif bölgələrində mövsümi xəstəliklərə yoluxma hallarını artırıb. Bu isə müəyyən dərman preparatlarına olan tələbatı kəskin artırıb.**

Fransada da dərman qıtlığı yaşanır. Ölkədə amoksisilin, ağrıkəsici və qızdırmasalıcı kimi dərmanları tapmaq çətinləşib. Dərmanların təminatında problem yaşayan əczaçılar keçən ilin sonundan etibarən təslimat gözləyirlər. Fransa hökuməti isə yaşanan dərman qıtlığını Çində koronavirusun şiddətlənməsinə görə parasetamol və amoksisilin maddəli dərmanların çox istifadə olunması ilə ələqələndirir.

Bəzi ABŞ və Avropa əczaçıları parasetamol kimi ümumi ağrıkəsicilərin çatışmazlığının olduğunu elan ediblər. Buna səbəb qrip, respirator sinsitial virus və koronavirusun qış dalğası fonunda onlara tələbatın artması olub. Bütün bunların fonunda vərəm, dəri infeksiyaları kimi xəstəliklərin müalicəsi üçün dərman çatışmazlığı da müşahidə olunur.

Səhiyyə mütəxəssisləri isə bildirib ki, dərman istehsalçıları koronavirus pandemiyası zamanı antibiotiklərə tələbatın azalması və tədarük zəncirlərində ciddi gərginlik səbəbindən istehsal həcmini azaldıblar. Həmçinin əczaçılıq şirkətləri tədarük və tənzimləyici məhdudiyyətlər səbəbindən istehsalı artıra bilmir. Məqalədə qeyd edilib ki, xüsusən də antibiotiklərin istehsalı üçün komponentlərin əldə edilməsində çətinliklər var. Enerji qiymətlərinin artması da istehsal müəssisələrinin mənfəətinin azalmasına səbəb olur.

Qeyd edək ki, son aylar ölkəmizdə də bəzi dərman preparatlarının çatışmazlığı ilə bağlı şikayətlər artıb. Xüsusilə uşaqlar üçün qızdırma salan preparatların, siropların tapılmaması narazılıq yaradır. Kəskin respirator virusların yayıldığı zamanda bu cür sıxıntının yaranması vətəndaşların haqlı narazılığına səbəb olur.

**"Əczaçılar Klubu" İctimai Birliyinin sədri Şövqi Bünyatovun sözlərinə görə, qiymət uyğunsuzluğundan şirkətlərin əksəriyyəti illərlə idxal etdikləri məhsulları gətirə bilmirlər ki, bu da çox sayda dərmanların bazardan ümumiyyətlə çıxmasına səbəb olur, nəticədə ümumilikdə dərman çeşidinin azalması müşahidə olunur:** "Hazırda vəziyyətdən çıxmaq üçün qiymət siyasətinə yenidən baxılmalıdır. İdxalçı şirkətlər pul qazanmalıdırlar ki, bu bizneslə də məşğul olsunlar. Alış qiyməti burdakı satış qiymətini üstələyirsə, həmin məhsulların bazarda olmasını düşünmək absurddur. Əgər iş adamlarına idxal üçün güzəştli şərait yaradılarsa, hansı ki, bu olmalıdır, ümumi işin xeyrinə böyük kömək olardı. Dərman sektorunun strateji sahə olduğunu unutmamalıyıq. Dərmanların qiymətinə nəzarət mexanizmi operativ və mobil olmalıdır, yəni dünyada həm xammalın, həm loqistik və digər amillərin qiymətlərinin təsirləri vaxtında öyrənilməli və ölkədaxili bazara tətbiq edilməlidir".

Yerli istehsalda arzuolunan nəticəyə çatmağın uzun vaxt tələb edən bir proses olduğunu vurğulayan İB sədrinin fikrincə, buna rəğmən bir yerdən başlamaq lazımdır: "Ölkəyə xarici istehsalçı şirkətlərin gəlməsi mütləqdir. Bu şirkətlər dərman istehsal etməklə müəyyən qədər daxili tələbatı ödəmiş olurlar, büdcəyə vergi verirlər, çoxlu iş yerləri açılır və artıq məhsullar hətta ixrac da olunur. Bu kimi şirkətlər çoxdur, sadəcə onları dəvət etmək və işlərini qurmaq üçün şərait yaratmaq lazımdır".

**Professor, həkim Adil Qeybulla isə problemin səbəbini COVID pandemiyası zamanı bu pereparatdan çox istifadə edilməsi ilə əlaqələndirib. Bu barədə "Şərq"ə danışan ekspertin fikrincə, adambaşına düşən antibiotik istehlakına görə bu problemin yaranması gözlənilən idi:** "Bu məsələnin kökü Rusiya-Ukrayna müharibəsinə dayanır. Hazırda Ukraynanın özündə əczaçılıq təchizatının infrastrukturu tamamilə dağıldığına görə ayrı-ayrı ölkələrdə də dərman maddələrinin qıtlığı yaranıb. Hətta Avropanın inkişaf etmiş ölkələrində belə bu problem dərinləşib. Müharibə iqtisadiyyata və dərman istehsalına təsir edib. Təkcə antibiotik deyil, xeyli dərman preparatlarının və bəzi qida maddələrinin yoxa çıxması nəzərə çarpır. Təbii ki, Azərbaycanda da bununla bağlı narahatlıq özünü göstərir".

**Şəymən**

## Xalq artistinin səhhəti yaxşılaşmağa doğru gedir



**Qarmon ifaçısı Xalq artisti Aftandil İsrafilovun səhhəti ilə bağlı son vəziyyət açıqlanıb.**

Bu barədə APA-ya sənətçinin həyat yoldaşı Zemfira İsrafilova məlumat verib. Onun sözlərinə görə, Xalq artistinin səhhəti yaxşılaşmağa doğru gedir. "Müalicələr davam etdirilir. Hazırda xəstəxanadadır. Hələlik, evə buraxılması barədə həkimlər bir söz demir. Amma əvvəlkinə baxanda yaxşıdır", - o vurğulayıb.

*Qeyd edək ki, Aftandil İsrafilov ötən ilin dekabrının 2-də xəstəxanaya yerləşdirilib. O, bundan öncə də kəskin plevrit səbəbi ilə xəstəxanaya yerləşdirilmiş, daha sonra yaxşılaşaraq evə buraxılmışdı.*

## Yollar dəhşətlidir

### Şəhidin 6 yaşlı yadigarı məktəbə gedə bilmir



**Şəhid ailəsi Sabunçu Rayon İcra Hakimiyyətindən şikayətçidir.**

Rayonun Maştağa qəsəbəsi Savalan yaşayış massivi, Məhərrəm Dadaşov küçəsində yaşayan şəhid Feyziyev Sadiq Tahir oğlunun ailəsi "Şərq"ə yolların bərbad vəziyyətdə olmasından danışıb.

Ailə bildirib ki, 6 yaşlı şəhid yadigarı yolların pis halda olması səbəbindən məktəbə gedə bilmir.

Ərazidə yaşayan sakinlərin sözlərinə görə, dəfələrlə Sabunçu Rayon İcra Hakimiyyətinə müraciət etsələr də, maraqlanan olmayıb.

*Qeyd edək ki, məsələ ilə bağlı Sabunçu Rayon İcra Hakimiyyəti ilə əlaqə saxlamağa çalışsaq da, cəhdlərimiz nəticəsiz qaldı.*

**Nihat Müzəffər**


**Elanlar**

"ADORA" MMC-nin möhürü itdiyi üçün etibarsız sayılır.

Kərimova Sevil Mehdi qızına məxsus əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

"ORSİON" MMC (VÖEN: 1802990061) Cəmiyyətin möhürü itdiyi üçün etibarsız sayılır.

"VEKSEL" MMC (VÖEN: 4401042241) Cəmiyyətin möhürü itdiyi üçün etibarsız sayılır.

"ALQORİTM.AZ" MMC (VÖEN: 4401042371) Cəmiyyətin möhürü itdiyi üçün etibarsız sayılır.

"DİVİDENT" MMC (VÖEN: 1802990191) Cəmiyyətin möhürü itdiyi üçün etibarsız sayılır.

"DEMPİNQ.AZ" MMC (VÖEN: 1802989821) Cəmiyyətin möhürü itdiyi üçün etibarsız sayılır.


# İstinad divarlarının tikilməsi yalnız bir yoldur

## Sürüşmə zonalarına susuzluğa davamlı bitkilər, ağaclar əkilməlidir

**"Hazırda ölkədə sürüşmə zonaları ilə bağlı durum stabildir". Bunu Geoloji Kəşfiyyat Agentliyinin İdarə Heyətinin sədri Əli Əliyev jurnalistlər üçün keçirilən brifinqdə deyib. O bildirib ki, sürüşmə ilə bağlı sonuncu monitorinq ötən gün Zığ, Badamdar və Qaraçuxurda aparılıb: "Texnogen faktorların qarşısının alınması istiqamətində işlər davam etdirilir. Ölkə ərazisində sürüşmə hadisələrinin dinamikası azalıb. Son illərdə sürüşmə ərazilərində istinad divarları tikilir.**

Qaraçuxurda bu yolla demək olar ki, sürüşmələrin qarşısı alınıb. Badamdar ərazisində də istinad divarlarının inşası prosesi davam etdirilir". Sədr əlavə edib ki, ölkə ərazisində 99 lokal sürüşmə zonası təsbit edilib və xəritələnib: "Onlardan 42-si davamlı monitorinqə cəlb edilir".



**İstinad divarları sürüşmə prosesinin qarşısını almaq üçün yetərlidirmi? Problemlə bağlı fikirlərini "Şərq"lə bölüşən geoloq Sadiq Əmiraslanov qeyd etdi ki, sürüşmə prosesinin qarşısının alınması üçün bir çox vasitələr mövcuddur, istinad divarları bu vasitələrdən sadəcə biridir:**

- Sürüşmə prosesinə qarşı müəyyən tədbirlər həyata keçirilir. O cümlədən də istinad divarlarının tikilməsi. İstinad divarları sürüşmə prosesinin qarşısını alır, həmçinin prosesin yenidən aktivləşməsini də ləngidir. Adi məntiq də bunu təsdiqləyir ki, axıcı kütlənin qarşısına qapaq qoymaqla axıntının qarşısı kəsiləcək. Ancaq istinad divarlarının tikilməsi yetərli deyil. Sürüşmə prosesinin qarşısını almaq üçün digər vasitələrdən - yerüstü suların idarə edilməsi, yamacın yükünün azaldılması, fitomeliorasiya, fitomühəndislik tədbirləri də görülməlidir. Sürüşmə zonalarına susuzluğa davamlı bitkilər, ağaclar əkilməlidir. Bunlara aylant bitkiləri deyilir. Onlar susuzluğa davamlı, tez boy atan bitkilər və ağaclardır. Hansı ki, sürüşmə zonalarında əkilməklə torpağın izafi nəmliyini özünə çəkir, torpağın nəmi hesabına qidalanır, onları sulamağa ehtiyac da yoxdur, ya da ildə 1-2 dəfə sulansa, kifayət edir. Belə bitkilər mövcuddur və onlardan sürüşmə zonalarında istifadə edilməlidir ki, əlavə sulamağa ehtiyac olmasın, torpağın alt qatlarında toplanmış suyun hesabına boy atsınlar, şaxələnsinlər. Belə olduqda torpaq da möhkəmlənir. Başqa bir tədbir yamacların yükünün azaldılmasıdır. Məsələn, aktiv sürüşmə zonası olan Bayılda bu tədbirlər görüldü. Süxur kütləsi aradan götürüldü, yamaca ağırlıq verən yükün qaldırılmasıyla əğaşı hissədə əkstəsir qüvvəsi yarandı və sürüşmənin qarşısı alındı.

S.Əmiraslanov qeyd etdi ki, sürüşmə zonaları aktivləşməsin deyə, yamaclara daim nəzarət edilməlidir. Yamacların yüklənməsinə, sürüşmə prosesinin aktivləşməsinə səbəb olacaq tikililərə icazə verilməməlidir. Yamacların oyadılmaması da əsas məsələdir. Xatırlayırsınızsa, Bibiheybət yolunda da torpaq sürüşməsi olmuşdu. Bəzən ağırtonnajlı avtomobillərin hərəkəti də sürüşmə prosesini aktivləşdirə bilir. Həmçinin qrunt sularının bir ərazidə toplanıb qalmamasına da diqqət edilməlidir. Ümumiyyətlə, Bakı, Abşeron yarımadası geoloji quruluşu etibarilə əhəngdaşı, qum və gildən ibarətdir deyə, sürüşməyə meyilli zonadır. Ona görə də bu məsələlər daim diqqətdə saxlanmalıdır.

**Məlahət Rzayeva**

# Banklar daha etibarlıdır

## Evdə saxlanılan pulun miqdarı artdıqca ortaya çıxacaq mümkün risk ehtimalları da yüksəlir

**Sosial Tədqiqatlar Mərkəzi keçirilən ictimai rəy sorğusu çərçivəsində vətəndaşların pul vəsaitlərini harada saxlamağı daha təhlükəsiz hesab etdiklərinə dair fikirlərini öyrənib.**

İnsanların heç də hamısı əldə etdikləri gəliri tam xərcləmirlər. Əksər insanlar qazanclarının bir hissəsinə qənaət etməyə üstünlük verirlər. Nəzəri cəhətdən pula qənaət həm də sərvət yaratmaq, etibarlı maliyyə təminatına sahib olmaq, gələcək xərclərini təmin etmək və həyatın qeyri-müəyyənliklərinə hazırlıqlı olmaq deməkdir. Pula qənaətin bu motivlərindən əlavə, mühüm məqam kimi, onu harada saxlamaq məsələsi də olduqca vacibdir. Son 10 ildə Azərbaycanda fiziki şəxslərin əmanətlərinin həcmi 2 dəfədən çox artmaqla, 2022-ci ildə 11.6 milyard manata bərabər olub. Onların 90 faizini isə rezidentlər tərəfindən banklara qoyulan əmanətlər təşkil edib. Milli valyuta ilə ifadədə 2016-cı ildən sonra manatla əmanətlər 4 dəfədən çox artdığı halda, xarici valyutada qoyulan əmanətlərin həcmi 1 milyard manat azalıb. Tendensiyanın əsas səbəbi milli valyutanın məzənnəsinin zamanla sabitlənməsi və bank sektorunda baş verən fluktuasiyaların qarşısının vaxtında alınması olub.

Sosial Tədqiqatlar Mərkəzi növbəti blitz sorğu mövzusu kimi vətəndaşların pullarını harada daha etibarlı (təhlükəsiz) saxlaya biləcəklərinə dair rəyi öyrənib. Qeyd etmək istərdik ki, sorğu çərçivəsində söhbət vətəndaşların gündəlik xərc təyinatlı vəsaitlərinin daha təhlükəsiz hesab etdikləri saxlama formasından gedir. Yəni spesifik olaraq yığımların daha etibarlı saxlanılması formaları ilə bağlı mövqe öyrənilməyib.

Keçirilən sorğunun nəticələrində insanların öz pullunu saxlamaq üçün daha çox banklara üstünlük verdiyi aşkar olunub. Belə ki, sorğuda iştirak edənlərin 39.9 faizi pulunu evdə saxladığı halda, 56.7 faizi banklara etimad göstərir. "Sizcə, pul vəsaitini harada qorumaq daha təhlükəsizdir" sualına kişilərin yarısı (50.3 faiz) "evdə" cavabı verdiyi halda, qadınların seçimi daha çox banklardan yana olub (62.9 faiz).

Sorğu nəticələrini yaş təsnifatı üzrə təhlil etdikdə məlum olur ki, digərləri ilə müqayisədə gənclər daha çox bankları təhlükəsiz hesab ediblər. Belə ki, 18-24 yaşda olanların 65.2 faizi öz seçimlərində banklara üstünlük verdiklərini bildirib. Bu məqam həmçinin özünü tələbələr üzrə də daha aydın şəkildə büruzə verib - 88.9 faiz. Həmçinin təhlillər orta aylıq gəliri 901-1200 manat aralığında olanların (70 faiz) digərləri ilə müqayisədə pul vəsaitini evdə saxlamağa üstünlük verdiyini göstərib.

**İqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, pulun həm özünü, həm də dəyərini qorumaq üçün banklar daha etibarlıdır. Amma maliyyə institutlarına inamın aşağı olduğu, maliyyə təşkilatçılığı və insanların maliyyə savadlılığının zəif olduğu iqtisadiyyatlarda yığımlar əsasən nağd şəkildə evdə saxlanılmaqla həyata keçirilir. Ancaq müəyyən çatışmazlıqlar onu bank və ya investisiya hesabında saxlamaqdan daha riskli edir:** "Evdə saxlanılan pulun miqdarı artdıqca ortaya çıxacaq mümkün risk ehtimalları da yüksəlir. Əgər istənilən zaman kapitalınızı götürüb dövriyyəyə buraxmaq istəyəcəksinizsə, sığorta əsasında banklarda əmanət saxlamaq daha güvənlidir. Yox, əgər uzun perspektivdə bunu strateji ehtiyat kimi mənzilə çevirmək, məsələn, ailənin hansısa gələcək planları, övladları üçün saxlamaq istəyirsinizsə, əmlak almaq daha uyğundur. Əmlak qiymətlərinin tədricən qalxması ilə yanaşı, tikinti xüsusi sürət alır. Müəyyən yerdə tikilən bina bir müddətdən sonra şəhərin sayılan və seçilən yerinə çevrilir". İqtisadçının fikrincə, aylıq gəlir baxımından banklardan alınan vəsait daha səmərəlidir: "Çünki əmlak bazarında kirayə üçün kifayət qədər təkliflər var. Bizdə bu sahədə qiymət tənzimləməsi kortəbiidir. Kirayə mənzili bazara kim ürəyi hansı qiymətə istəyir, o qiymətə də çıxarır. Bazarda kifayət qədər çox təklif olduğundan Azərbaycanda evlərin kirayə verilməsi çox riskli və gəliri az olan prosesə çevrilib".



**Şəymən**


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 160





## Ronaldo Səudiyyə Ərəbistanında xoşbəxtdir

### Corcina da ailəsi ilə yeni həyatına öyrəşir

**"Əl-Nassr" klubuna transferindən sonra Kriştiano Ronaldo Səudiyyə Ərəbistanına köçüb. Ronaldonun uşaqlarının anası Corcina Rodriges ailəsi ilə Ərəbistanda yeni həyatına öyrəşir.**

"Şərq" xəbər verir ki, illik 200 milyon avro qazandığı iddia edilən Ronaldonun sevgilisi Corcina Rodriges Ərəbistandakı sosial həyatını sosial şəbəkədə yayıb.

O, instaqramda Səudiyyə Ərəbistanındakı əyləncə parkında əylənən ailəsinin fotosunu paylaşaraq üzərinə "Riyad, sən nə gözəlsən" şərhini yazıb.

"Əl-Nassr"la 2 il yarımlıq müqavilə imzalayan 37 yaşlı Ronaldo burada özünü ailəsindən daha çox xoşbəxt hiss edir.

**Turan**

## Ruslar ötən il Türkiyədə 16 mindən çox mənzil alıblar



**Rusiyalılar 2022-ci ildə Türkiyədə mənzil alan xarici ölkə vətəndaşları arasında lider olublar. Ötən il onlar 16 mindən çox daşınmaz əmlak alaraq iranlıları iki dəfə qabaqlayıb.**

Azərtac Türkiyə mediasına istinadla xəbər verir ki, bu barədə ölkənin Milli Statistika İnstitutu məlumat yayıb.

Məlumata görə, rusiyalılar dekabr ayında 2 min 403 mənzil, il ərzində isə ümumilikdə 16 min 312 mənzil alıblar. Siyahıda ötən il Türkiyədə 8 min 223 mənzil alan iranlılar ikinci, 6 min 241 mənzil alan iraqlılar isə üçüncü yerdədir.

Həmçinin ötən il Türkiyədə xarici ölkə vətəndaşlarına 2021-ci illə müqayisədə 15,2 faiz çox - 67 min 490 mənzil satılıb. Əcnəbilərə satılan mənzillərin ümumi payı 4,5 faiz təşkil edib. Ən çox daşınmaz əmlak İstanbulda satılıb - 24 min 953. Antalyada 21 min 860, Mersində isə 4 min 316 mənzil xarici ölkə vətəndaşları tərəfindən alınıb.

## Hinduşka əti...

### Qocaların sinir sistemi üçün ən xeyirli qidadır



**Diyetoloq Yelena Solomatina yaşlı insanların sinir sistemi üçün faydalı məhsuldan danışıb.**

Lent.az xarici mediaya istinadla xəbər verir ki, həkim hinduşkanı qocaların sinir sistemi üçün ən xeyirli qidalardan biri adlandırıb. Onun sözlərinə görə, sinir sisteminin normal işləməsi üçün orqanizmdə hinduşkada olan B vitaminləri kifayət qədər olmalıdır.

Diyetoloq hinduşkanın çoxlu maqnezium ehtiva etdiyini də vurğulayıb. Onun sözlərinə görə, bu məhsuldan müntəzəm istifadə qıcıqlanmanı aradan qaldırır və sinir sistemini gücləndirir.

Bundan əlavə, hinduşkanın tərkibində beyin üçün faydalı olan fosfor da var.

## Pikenin Şakiraya cavabı gecikmədi



**Dünya şöhrətli müğənni Şakira yeni mahnısında ona xəyanət edən eks-sevgilisi, "Barselona"nın keçmiş müdafiəçisi Jerar Pikeyə söz atdıqdan sonra qarşı tərəfin də cavabı gecikməyib.**

**Axşam.az xəbər verir ki, Pike mahnının sözlərində "Ferrari"ni "Twingo"ya dəyişdiyi sözlərinə cavab olaraq həmin markalı avtomobillə video çəkərək paylaşıb. O, qiyməti təqribən 9,7 min dollar olan maşınla işə gedərək həmin kameraya poz verib.**

**Qeyd edək ki, cütlüyün ayrılmasına səbəb Pikenin ifaçıya xəyanət etməsi olub. Şakira və Pike 11 ildir ki, münasibətdə idilər. Onların iki oğlu var - 9 yaşlı Milan və 7 yaşlı Saşa.**

## Afranın keçmiş sevgilisi səssizliyini pozdu



**Xəbər verdiyimiz kimi, türkiyəli aktrisa Afra Saraçoğlu ilə aktyor Mert Ramazanın bir müddətdir birgə görüntülənməsi eşq iddialarının yaranmasına səbəb olub.**

**Mövzu ilə bağlı aktrisanın keçmş sevgilisi, aktyor Mert Yazıcıoğlu məsələyə ilk dəfə münasibət bildirib. O, Afra haqqında çıxan xəbərləri əsassız adlandıraraq Mertə görə ayrıldıqlarını təkzib edib:**

**"Yox, elə bir şey ola bilər? Məsələ elə deyil. Normal münasibət idi bizimki. Yaşandı və sonra da bitdi. Bundan başqa nəsə yoxdur".**

**Qeyd edək ki, Afra ilə Mert hazırda "Yalı çapkını" serialında rol alır. Afra bir müddət əvvəl aktyor Mertlə 4 illik münasibətini sonlandırıb.**



# Kimə yaxınlaşdı, bir-bir öldü!



### Oskarın sirri bir çox xəstəlikləri sağalda bilər

**Hansı xəstəyə yaxınlaşırdısa, qısa müddət sonra xəstə həyatla vidalaşırdı. Tibb bacıları əvvəlcə buna diqqət etməyib. Ölü sayı 50-ni keçincə, vəziyyəti araşdırmaq qərarına gəliblər. Nəticə həyəcanverici olub. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, söhbət Oskar adlı pişikdən gedir. Oskar ABŞ-nin Rhode İsland ştatındakı Providens şəhərində yerləşən və altsheymer xəstələrinə xidmət göstərilən sığınacağın sakinidir. Onu dünyada məşhurlaşdıransa sahib olduğu əlahiddə duyğu qabiliyyətinin olmasıdır.**

Sığınacağın sakini olan pişik hansı xəstəyə yaxınlaşıbsa, həmin adam qısa müddət keçdikdən sonra vəfat edib. Bunu nəhayət fərq edən sığınacaq həkimləri pişiyə diqqət etməyə başlayıb. Məlum olub ki, bu pişik xüsusi duyğu hissinə malikdir. O, hansı xəstənin yaxın günlərdə vəfat edəcəyini hiss edir. O, xəstəyə yaxınlaşır. Və bu hissi onu yanıltmır. Həqiqətən də heyvanlar, o cümlədən pişiklər insanın ölümünün yaxınlaşdığını hiss edirmi? Bu məsələni türkiyəli professor Tamer Dodurka araşdırıb. Heyvanların insanlar üzərində təsirini anladan professor bildirib ki, heyvanlarla insanlar arasında güclü bağlılıq olduğu tarixdən məlumdur. Bəzən pişiklər ölümün qoxusunu ala bilir, insanın başına gələcəkləri hiss edir və mənəvi, psixoloji dəstək üçün ona yaxınlaşır. Oskar adlı pişiyin davranışlarında məhz bu müşahidə edilib. Sığınacağın həkimi David Dosanın araşdırması gerçəyi üzə çıxarıb. Professor T.Dodurka tarixdə bu cür hadisələrə çox rast gəlindiyini deyib. Heyvanların iştirakı ilə müalicə terapiyası hələ 19-cu əsrdə mövcud olub. Məşhur Ziqmund Freyd psixi və sinir xəstələrinin müalicəsində heyvanlarla müalicə üsulundan istifadə edib. 1976-cı ildə isə heyvanlarla müalicə üsulu fiziki xəstəliklərin müalicəsində istifadə edilib. Bu terapiya üsulundan indi də ABŞ və İngiltərədə geniş istifadə edilir. Amerika və Avropada daha çox it və pişiklərə üstünlük verilən müalicə üsulu Türkiyədə fərqli vasitə ilə - atlarla aparılır. Tamer Dodurka Rumeli Universitetinin rektorudur, veterinar və daxili xəstəliklər üzrə professordur. Onun bildirdiyinə görə, heyvanların psixiatriya, nevrologiya, qan təzyiqi, ürək-damar xəstəlikləri, əzələ və sinir xəstəlikləri, fiziki qüsurların müalicəsi və aradan qaldırılmasında istifadə edilə bilər. Heyvanların şəfaverici gücündən müalicələrə kömək məqsədilə istifadə edilməlidir. "12 yaşlı zehni problemli uşaqlarla bağlı tədqiqatda uşaqları vaxtaşırı heyvanlarla bir araya gətirdik. Bir qız uşağı əvvəlcə itdən qorxsa da, sonra ona sarıldı, öpməyə başladı. Və bizdən itin tüklərini daramaq üçün fırça istədi. İtin tüklərini daradı və yenə ona sarılıb "mən səni çox sevəcəm, həmişə tüklərini darayacam və səni tək qoymayacağam", dedi. Öyrəndik ki, bu uşağı anası atıb gedib. Demək, uşaq iti özünə dost seçməklə tənhalıqdan xilas olmağın yolunu tapıb, bununla daxilindəki küskünlüyü xaricə çıxarıb özünü mənəvi müalicə edirmiş".

**Məlahət**



# Hərəkət edən daşlar

### Trovant daşları bütün dünyanın diqqətini çəkir



**Hərəkət edə bilən, böyüyən və "doğan" Trovant daşları bütün dünyanın diqqətini çəkir. Yalnız Rumıniyada yerləşən və UNESCO tərəfindən qorunan bu daşlar min ildə cəmi 5 santimetr böyüdüyü üçün uzun bir tarixə malikdir. Alimlər bu daşların sirrini açmaq üçün çalışırlar.**

"Şərq" xəbər verir ki, canlı daşlar adlanan Trovant daşları Rumıniyanın paytaxtı Buxarestdən təxminən 80 kilometr qərbdə, Kosteşti adlı kiçik Rumın kəndində yerləşir.

Dönüşüm prosesini çınqıl kimi başlayan və min ildə təxminən 5 santimetr böyüyən Trovant daşları, bitki və məməli həyatını təqlid edən unikal mineral quruluşa malikdir. Daşlar bitki toxuması kimi böyüyür və məməlilər kimi yeni daşlar "doğur".

Rumıniya Geologiya İnstitutundan dr. Mirça Tikleanu mövzu ilə bağlı bunları söyləyib: "Rumıniyadakı trovanların çox fərqli yaşları var. Trovanlar sadəcə olaraq görünmür; onlara təbii qabarıqlıqlara çatan müxtəlif geoloji dövrlərin qum kütlələrində və ya qum ocaqlarında rast gəlinir".

Tikleanu, "trovant" sözünün ilk dəfə Rumıniyadan geoloji ədəbiyyatda istifadə edildiyini söyləyib. Kosteşti bölgəsinə gələn ziyarətçilər yağış suyunun varlığında zamanla yavaş-yavaş böyüyən çoxlu sayda trovant daşları kəşf ediblər.

Trovant daşları yağış suyunun tərkibindəki minerallarla daşın içərisində təzyiq əmələ gətirən reaksiya yaratdıqda böyüyür və çoxalır. Ağacların ətrafındakı halqalar kimi, trovanlar da kəsildikdə, hər biri böyümə dövrünü yaşayır.

Trovant daşları elmi cəhətdən canlı olmasa da, zaman keçdikcə dəyişdiyi üçün həm yerli sakinlər, həm də turistlər onları canlı daşlar kimi qələmə verirlər.

Digər tərəfdən, Kosteşti trovan daşlarının tapıldığı tək yer deyil; Rumıniyanın fərqli bir bölgəsi olan Karpat bölgəsində də rast gəlinir. Lakin Karpatda tapılan daşlar Kosteştidəki daşlar qədər böyük deyil.

Qeyd edək ki, bu daşlara yalnız Rumıniyada rast gəlinir. Trovant daşları 2004-cü ildə Rumıniyanın Valça qraflığındakı Trovans Muzeyi Təbiət Qoruğu kimi YUNESKO tərəfindən qorunur.

**Turan**

## Civə ilə zəhərləyir, xərçəng yaradır

### Köhnə batareyaları evdə saxlamayın!



**Fikir vermisinizsə, məişətdə işlədilən batareyaların korpusunda zibilqabı işarəsi yoxdur.**

Bu o deməkdir ki, onu zibil qabına atmaq olmaz. Avropa və digər ölkələrdə batareyalar təhvilalma məntəqələrində əhalidən alınır və zərərsizləşdirilir. Azərbaycanda isə köhnə batareyalarla uşaqlar evdə oyuncaq kimi oynayır, yaxud siyirmələrdə aylarla qalır. Zibilliyə atılan bu batareyalar düşdüyü ərazini zəhərləyir.

Ağır metallar, duzlar, civə, kanserogen maddələrlə dolu olan batareyalar azı 10 il insan həyatı üçün təhlükəlidir.

İşlənmiş batareyanın tərkibində kadmiy, maqniy, civə, nikel, qurğuşun da var ki, bunlar da orqanizm üçün təhlükəlidir.

Bakupost.az işlənmiş və açıq batareyaların uşaq və böyüklərin orqanizminə ziyanı ilə bağlı məlumatları təqdim edir:

İşlənmiş batareyalar dəri xəstəlikləri, bronxit, civə ilə zəhərlənmə, beyin xəstəlikləri, sinir zədələnmələri, böyrək və sümük xəstəlikləri, anomaliyalar, xərçəng və s. yaradır.

Batareyalardakı zərərli maddələr oğlan və qız uşaqlarının bədənində toplanaraq onlarda hormonal pozuntu, sonsuzluq yaradır. Eləcə də ana bətnində dölün qüsurlu olmasına səbəb olur.

Məişətdə istifadə olunan irili-xırdalı batareyalar bankaya qoyularaq, xüsusi məntəqəyə təhvil verilməlidir.

Artıq həmin məntəqələrin yerləri elan edilib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Batareyaları təhvil ver, təbiəti qoru" layihəsi çərçivəsində toplama məntəqələrinin sayı artırıləb. PMD şirkətlər qrupuna daxil olan biznes və ticarət mərkəzində (Çinar Plaza, Dalğa Plaza, Bayıl Plaza, BEGOC Biznes Mərkəzi, Şərq Bazarı, Zefir Mall, "PMD Group" mərkəzi ofis) batareya qutuları yerləşdirilib.

*Qeyd edək ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və "Qırmızı Ürəklər" Fondu tərəfindən 2022-ci ilin may ayından etibarən start verilən layihə çərçivəsində ötən il ərzində 297 kq işlənmiş batareya təhvil alınıb.*

## Çinin əhalisi son 60 ildə ilk dəfə azalmağa başlayıb



**Ötən il Çinin əhalisi 1959-1961-ci illərdə ölkədə baş verən kütləvi aclıqdan sonra ilk dəfə azalmağa başlayıb.**

Bu barədə Çin Milli Statistika Bürosunun açıqladığı hesabatda qeyd edilib.

"Ötən il əhalinin sayı 2021-ci illə müqayisədə 850 min nəfər azalaraq 1 milyard 411 milyon 750 min nəfər təşkil edib. 2022-ci ildə yeni doğulanların sayı 9,56 milyon, ölənlərin sayı isə 10,41 milyon nəfər olub", - hesabatda deyilir.